4. Rəşad Nuri Güntəkin. Yarpaq tökümü, İstanbul, 1944.
5. Rəşad Nuri Güntəkin. Yaşıl gecə, İstanbul, 1959.

# SOCIAL AND POLITICAL CHARACTERISTICS OF NAZIM HIKMET'S POETRY

# NAZİM HİKMƏT ŞEİRİNİN İCTİMAİ-SİYASİ XÜSUSİYYƏTLƏRİ

**ƏLİYEVA VÜSALƏ VÜQAR QIZI**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti, Filologiya Fakültəsi,Azərbaycan Dili Və Ədəbiyyatı Müəllimliyi İxtisası**

**Xülasə:**

Nazim Hikmət XX əsr Türkiyə ədəbiyyatında özünəməxsus yer tutan, yüksək ədəbi irsə malik olan bir sənətkardır. O özünün romantik ruhlu,coşqun pafoslu, dərin mənalı əsərləri ilə müasir Türk ədəbiyyatının inkişafına əvəzsiz töhfələr vermişdir. Hər şeydən əvvəl o, vəzn və qafıyə sərhədlərini aşaraq sərbəst şeirin ən gözəl nümunələrini yarada bilmişdir. N. Hikmət poeziyasında Vətən sevgisi xüsusi bir mərhələ təşkil edir. N.Hikmət ruhunun təməlində tarixə, keçmişə, mənəvi dəyərlərə bağlılıq, diqqət və hörmət dayanır. . N.Hikmət romantik şairdir. Onun romantikası N.Hikmətə xas olan hiss və duyğuların izharında yeni keyfıyyət qazanır. Sevgi və həsrə tin lirik-psixoloji mahiyyəti N.Hikmət romantikasında yeni bir poetik göstəriciyə çevrilir: Yeni forma və mövzuya yeni münasibət N.Hikmət poeziyasının səciyyəvi xüsusiyyətlərindən biridir.

**Açar sözlər:** Nazim Hikmət, Yeni forma, Sərbəst şeir, Yeni ruh,Romantik şair



**Abstract:**

Nazım Hikmet is a prominent figure in 20th-century Turkish literature, possessing a unique literary legacy. Through his romantic, passionate, and profoundly meaningful works, he made invaluable contributions to the development of modern Turkish literature. Above all, he transcended the boundaries of meter and rhyme, creating some of the finest examples of free verse. In Nazım Hikmet's poetry, love for the homeland plays a crucial role. At the core of Hikmet's soul lies a deep connection to history, the past, and moral values, with attention and respect towards them.. Nazım Hikmet is a romantic poet, and his form of romanticism gains a new quality in the expression of feelings and emotions unique to him. The lyrical-psychological essence of love and longing in Hikmet's romanticism turns into a new poetic dimension. A new approach to form and theme is one of the defining features of Nazım Hikmet's poetry.

**Keywords:** Nazım Hikmet, New form, Free verse, New spirit, Romantic poet

## Giriş/introduction

Nazim Hikmət XX əsr Türkiyə ədəbiyyatında özünəməxsus yer tutan, yüksək ədəbi irsə malik olan bir sənətkardır. O özünün romantik ruhlu,coşqun pafoslu, dərin mənalı əsərləri ilə müasir Türk ədəbiyyatının inkişafına əvəzsiz töhfələr vermişdir. Nazim Hikmət mütərəqqi ictimai xadim olmaqla yanaşı, həm də istedadlı şair və dramaturq idi. Onun lirikasının nəinki ölkə daxilində, o cümlədən dünyanın bir çox ölkələrində məhşurlaşmasının və sevilməsinin səbəbi əsərlərindəki mövzu müxtəlifliyi, ideya baxımından zənginliyi, təsir gücünün qüvvətliliyindədir.

Nazim Hikmət türk dünyasının və XX əsr dünya ədəbiyyatının ən böyük şairlərindəndir. Kim nə deyir desin bu sübuta ehtiyacı olmayan danılmaz həqiqətdir.

Xalqlararsı bir qrum olan YUNESKO-nun 2002-ci ili- şairin 100 illiyi bütün dünyada Nazim Hikmət ili kimi elan etməsi bu gerçəkliyin daha bir təsdiqidir.

Nazim Hikmətin əski ədəbiyyatı onun ruhunu və formasını qəbul etməməsi, əski şeirin məzmununa və biçiminə etirazı onun özünün yaratdığı yeni məzmuna və yeni formaya əsaslanmasaydı, yeni ruhu meydana gətirməsəydi şair söz sənətində yeni səhifə aça bilməzdi.

**Əsas hissə/ Main part**

Yaradıcılığının ilk mərhələsində Yəhya Kamal, Faruk Nafiz, Yusif Ziya, Orxan Seyfi kimi tanınmış şairlərlə sıx əlaqədə olmuşdur. 1920-ci ildə "Alemdar" qəzetinin təşkil etdiyi müsabiqədə birinci yeri tutması onun şeir yazmaq həvəsini daha da artırmışdır. N.Hikmət poeziyada yenilik tərəfdarı olmuş və bir şair kimi üzərinə düşən işin öhdəsindən layiqincə gəlmişdir. Hər şeydən əvvəl o, vəzn və qafıyə sərhədlərini aşaraq sərbəst şeirin ən gözəl nümunələrini yarada bilmişdir. O, sənətdə ənənəni həmişə yüksək qiymətləndirmişdir.

N. Hikmət poeziyasında Vətən sevgisi xüsusi bir mərhələ təşkil edir. Şairin harada olmasından asılı olmayaraq onun poeziyasında oxucu böyük bir yanğısı Vətənə qovuşmaq, həsrətə son qoymaq istəyini görür. "O divar" şeirində ilk baxışda məhbəs barmaqlıqları arxasından azadlığa can atan bir insan obrazının canlandığını görürük. Lakin bu insan adi məhbus deyil, Vətən təşnəli şairin özüdür.

Sükun yok, hareket var, bugün yarına çıkar,

yarın bugünü yıkar

ve bu durmadan akar akar

akar.

Biz bugünün kahramanı, yarının

münadisiyiz.

Bu durmadan akan, yıkıb yapan

akışın

çizgilenmiş sesiyiz.

Şairin fikrincə, nə qədər ki, hər şey olduğu kimi qalacaq, cəmiyyətdə köklü dəyişikliklər baş verməyəcək, bu divar işıqlı sabahın, tarixin axınının qarşısını kəsəcək.

"Günəşi içənlərin mahnısı" (1928) şeirində şairin lirik-fəlsəfi, siyasi düşüncələrinin əksi diqqəti cəlb edir. Burada həyatı dəyişmək istəyən, mübarizə yolundan başqa yol tanımayan, ölümün üzünə dik baxan insanların pafoslu çağırışları haqq səsi kimi səslənir. Bu insanlar adi insan deyildir. Onlar "ürəyinin sürətini torpaqlarından alan", "ildırım küləklərə minən", dünyanı kökündən dəyişdirmək iqtidarında olan əsl qəhrəmanlardır.

Axın var,

Günəşə axın!

Günəşi zəbt edəcəyik,

Günəşin zəbti yaxın

Düşməsin bizimlə yola

evində ağlayanların

göz yaşlarını

boynunda ağır bir zəncir

kimi daşıyanlar!

Gəlməsin dalımızca

öz qəlbinin qabığında yaşayanlar!

N.Hikmət ruhunun təməlində tarixə, keçmişə, mənəvi dəyərlərə bağlılıq, diqqət və hörmət dayanır.

Çox uzaqlardan gəlirik,

çox uzaqlardan,

Qulaqlarımızda hələ

İldırımlı səsi var sapan daşlarının.

Meşələrində vəhşi atlar kişnəyən

dağ başlarının

qanlı heyvan sümüklərilə dövrələnmiş sərhədləri

Gəldiyimiz yolun ucudur...

Dəvət" (1947) şeirində göz önündə sanki türk ellərinin xəritəsi

canlandırılır və Asiyadan Ağ dənizə qədər uzanan bu torpaqları ipək xalıya, xəritə görüntüsünü isə ata bənzədən şair öz məmləkətinin bu gününə sahib durduğu kimi, onun keçmişinə də sahib durur. Keçmişdən bu günə uzanan tarixi, onun keşməkeşlərini, uğur və səadətini öz taleyi hesab edir:



Çaparaq gəlib uşaq Asiyadan

Ağ dənizə bir madyan başı kimi uzanan

Bu məmləkət bizimdir!

Biləklər qan içində, dişlər kilidli, ayaqlar

çılpaq və ipək bir xalıya bənzəyən torpaq,

bu cəhənnəm, bu cənnət bizimdir!

N.Hikmət böyük ideallar şairidir. Arzusu böyük, ümidi sonsuz, sevgisi coşğun olan şair "bəyaz yelkənli gəmilərdə aydın üfüqlərə" get- məyi insanlıq üçün vacib sayır. Çünki N.Hikmət həyatla ölümün sərhəddində maneə görmür. Öz arzularının işığında şair həsrətə son qoyub ideala qovuşmağın romantik ifadəsini bu cür təqdim edir:

Dənizə dönmək istəyirəm

Mavi aynasında suların

Boy verib görünmək istəyirəm

Mən sularda batan bir işıq kimi

Sularda sönmək istəyirəm!

Dənizə dönmək istəyirəm

Dənizə dönmək istəyirəm.

N.Hikmət romantik şairdir. Onun romantikası N.Hikmətə xas olan hiss və duyğuların izharında yeni keyfıyyət qazanır. Sevgi və həsrətin lirik-psixoloji mahiyyəti N.Hikmət romantikasında yeni bir poetik göstəriciyə çevrilir:

Mən bir ceviz ağacıyam Gülhanə parkında

Yarpaqlarım suda balıq kimi qıvıl-qıvıl

Yarpaqlarım ipək dəsmal kimi tıril-tıril

Qopararaq, gülüm, gözlərinin yaşını sil

. Yarpaqlarım əllərimdir, düz yüz min əlim var

Yüz min əllə toxunuram sənə, İstanbula,

Yarpaqlarım gözlərimdir, baxıram heyrətlə

Yüz min gözlə seyr edirəm səni, İstanbulu,

Yüz min ürək kimi çarpar-çarpar yarpaqlarım.

Mən bir ceviz ağacıyam Gülhanə parkında,

Nə sən bunun fərqindəsən, nə də polis fərqində.

("Ceviz ağacı", 1957)

Şeirdə kökü torpağı qucan, budaqları buludlara çatan, Gülhanə par- kında əzəməti ilə seçilən, lakin heç kimin fərqində olmadığı qocaman Ceviz ağacı vətənpərvər insanın – şairin, İstanbul isə həsrətin, sevginin, vətənin simvoludur. Şeir N.Hikmətin Türkiyə həsrətini ifadə etmək baxımından xarakterikdir, Şair 7 il əvvəl ayrıldığı, bir daha görə bilməyəcəyi Vətəninə İstanbulun simasında tamaşa edir. Lakin şair burada ümumiləşdirmə apararaq özü ilə yanaşı, yüz minlərlə insanın həsrəti və sevgisini ifadə etmişdir. Şeirdə təsvir olunan ağac adi ağac deyildir. Bu ağac yarpaqlarının sayı qədər -yüz min əli, yüz min gözü, yüz min ürəyi olan ağacdır (insandır).



N.Hikmətdə Türkiyə sevgisi, milli ruh və milli qürur duyğusu olduqca yüksək olmuşdur. Şair şeirlərinin birində Tür- kiyə haqqında belə yazır:

Məmləkətlər içində bir şirin məmləkətdir

Türkiyə, bizim məmləkət.

("Məmədə son məktubum", 1954)

İnsanların yeni dünya arzularına çatmasını mübarizədə görən şair bir sıra şeirlərində "köhnə dünya" adlandırdığı istismarçı cəmiyyəti tənqid edir və onun məhvə məhkum olacağına əminliyini bildirir:

Köhnə dünya, yeni dünya önündə əyil!

Aramızdan neçə yoldaş ayırmaq deyil

Hər nə etsən yetəcəyik əməlimizə.

N.Hikmət "bir gül ilə bahar olmaz" ideyasını yaxşı başa dü- şür, bütün insanların mübarizəyə qoşulmalarını arzulayırdı. O, anlayırdı

ki, azadlıq hamının haqqıdırsa, mübarizə də hamının borcudur. N.Hik- mət "dərdi çox, həmdərdi az dünyada" hamını mübarizəyə səsləyirdi.

Mən yanmasam,
sən yanmasan,
biz yanmasaq,
necə
çıxar qaranlıqlar aydınlığa...

Nazim Hikmət harada yaşamasından asılı olmayaraq Azərbaycana böyük məhəbbət bəsləmiş, ona ürəkdən bağlı olub. Bu da səbəbsiz deyil. Hər şeydən əvvəl Azərbaycan Nazim Hikmət üçün qədim türk yurdu və türk ruhunu qoruyan insanların yaşadığı müqəddəs bir məkan idi. Şair "Bakıya gedirəm" şeirində Azərbaycana səmimi duyğularını aşağıdakı kimi ifadə edir:

Bakıya gedirəm, ay balam,
Bakı-Əsli, mən-Kərəm.
Bakı gəncliyim demək,
Dost əlinə əmanət etdiyim ürək.

Nazim Hikmətin "Neftə doğru" adlı şeirinin mövzusu da Azərbaycanla bağlıdır. Şeirdə bir sıra təbiət lövhələri ilə yanaşı, əsasən Bakı mənzərələri timsalında Bakının obrazı əksini tapmışdı:

Düşünen beyni Moskovaysa ülkemizin,
Taze kan dağıtan kalbidir Bakü!..
İlık ve aydınlık bir güney gecesi...
Havalarda iri taşlı billur avizeler yanıyor...



**Nəticə/conclusion**

Yekun olaraq deyə bilərik ki,Nazim Hikmətin əski ədəbiyyatı onun ruhunu və formasını qəbul etməməsi, əski şeirin məzmununa və biçiminə etirazı onun özünün yaratdığı yeni məzmuna və yeni formaya əsaslanmasaydı, yeni ruhu meydana gətirməsəydi şair söz sənətində yeni səhifə aça bilməzdi.

Nazim Hikmət türkün dünyaya bəxş etdiyi nadir istedadlardan biridir. O, həm Şərqin, həm də Qərbin ədəbi taleyində əhəmiyyətli rol oynamış, dünya bədii söz sənətində imzasını qoymuş böyük sənətkardır. Onun yaradıcılığı bir şeirində deyildiyi kimi "sonu yaxşılıqla bitən kitabdır". Bu "kitabı" oxumaq hamı üçün faydalıdır.

**Ədəbiyyat/References**

1.Babayev.A"Nazim Hikmət qalaktikası" Bakı,2016

2.Müasir dünya ədəbiyyatı, Nazim Hikmət seçilmiş əsərləri. Bakı,2009

3..Quliyev.E. " Türk xalqları ədəbiyyatı. Bakı, 2023

# ABAY KUNANBEYOV, THE BRIGHT FACE OF KAZAKH LITERATURE
# ABAY KUNANBƏYOV QAZAX ƏDƏBİYYATININ İŞIQLI SİMASI KİMİ

**ABBASOVA SEVİNC MÜŞFİQ QIZI**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti, Filologiya Fakültəsi, Azərbaycan Dili Və Ədəbiyyat Müəllimliyi İxtisası**

**Xülasə**:

Abay Kunanbayev, XIX əsr qazax ədəbiyyatının banisi və ilk realist şairi olaraq, qazax mədəniyyətinə böyük töhfələr vermişdir. Onun əsərləri qazax xalqının sosial və mədəni inkişafına, Qərb və Şərq dəyərlərinin birləşməsinə mühüm töhfələr verib. Gəncliyində geniş təhsil alan Abay, həm Şərq, həm də Qərb ədəbiyyatını mənimsəmiş, rus ədəbiyyatından tərcümələr edərək qazax oxucusunu dünya ədəbiyyatı ilə tanış etmişdir Abay şeirlərində ədalət və sosial bərabərsizlik məsələlərini qaldıraraq realizm üslubunu əsaslandırmışdır. Xalqın sosial problemlərinə, təhsilsizliyinə, rüşvətxorluğa qarşı çıxaraq, şeirlərində maarifçilik ideyalarını ön plana çəkmişdir. Ailə üzvlərinin itkisindən sonra şəxsi ağrı və kədərini də şeirlərinə əks etdirən Abay eyni zamanda məhəbbətin fəlsəfi mənasını və insan həyatındakı əhəmiyyətini tərənnüm etmişdir.

Qadın obrazlarını sədaqət, zəhmət və məhəbbət simvolu kimi təsvir edən Abay, qadınların ailə və cəmiyyətdəki roluna xüsusi önəm vermişdir. “Maqsud” poemasında var-dövlət və ağıl arasındakı mübarizəni, “Əzim haqqında nağıl”da isə əxlaqi dəyərlərin əhəmiyyətini vurğulamışdır. Abay Kunanbayevin əsərləri qazax ədəbiyyatında realizm və maarifçiliyi gücləndirərək, əxlaqi dəyərlərə çağıran bəşəri bir məna daşıyır.

**Açar sözlər;** Abay Kunanbayev, XIX əsr qazax ədəbiyyatı , Realizm , Maarifçilik, Sosial bərabərlik, Əxlaqi dəyərlər

**Summary:**

Abay Kunanbayev, the founder of 19th-century Kazakh literature and its first realist poet, made significant contributions to Kazakh culture. His works played a crucial role in the social and cultural development of the Kazakh people and facilitated the integration of Western and Eastern values. Abay received a broad education in his youth, mastering both Eastern and Western literature, and introduced the Kazakh reader to world literature by translating Russian works.In his poetry, Abay raised issues of justice and social inequality, establishing realism as his main style. He focused on the social problems of the people, such as illiteracy and corruption, promoting enlightenment ideas in his verses. After the loss of family members, Abay reflected his personal pain and sorrow in his poetry, while also celebrating the philosophical meaning of love and its importance in human life.

Abay depicted women as symbols of loyalty, hard work, and love, emphasizing their role in both the family and society. In his poem “Maqsud”, he explored the conflict between wealth and wisdom, while in “The Tale of Azim”, he highlighted the importance of moral values. Abay Kunanbayev’s works strengthened realism and enlightenment in Kazakh literature, carrying a universal message that calls for ethical values.

**Keywords**; Abay Kunanbayev, 19th century Kazakh literature, Realism, Enlightenment, Social equality, Women's images, moral values

**Giriş/Introduction**

Abay Kunanbayev XIX əsr qazax yazılı ədəbiyyatının banisi və ilk realist şairi kimi məşhurdur. Onun ədəbiyyat və mədəniyyət sahəsindəki rolu, qazax xalqının müasir ədəbiyyatını formalaşdıran ən mühüm təməl daşlarından biridir. Abay həmçinin qazax xalqının sosial və mədəni inkişafına böyük təsir göstərmiş, həm Şərq, həm də Qərb mədəniyyətlərinin birləşməsində körpü rolunu oynamışdır.

Abay Kunanbayevin həyatına və yaradıcılığına nəzər yetirdikdə, onun təhsili və inkişafı bir neçə mühüm məqamı özündə birləşdirir. Abay Kunanbayev xüsusilə rus ədəbiyyatının ən böyük nümayəndələrindən olan Puşkin, Lermontov, Tolstoy kimi şair və yazıçıların əsərlərini qazax dilinə tərcümə edərək, bu əsərləri qazax oxucusuna təqdim etmişdir.

Abay Kunanbayevin ədəbiyyatına gəlincə, onun şeirləri çox zəngin və çoxşaxəlidir. O, insanlıq və ədalət məsələlərinə böyük diqqət yetirir, cəmiyyətin sosial bərabərsizliklərini və təhsil, maarifçilik ideyalarını tənqid edir. Eyni zamanda, Abay insan ruhunun dərinliklərini, vicdan və əxlaq məsələlərini öz yaradıcılığında gündəmə gətirərək, ədəbiyyatda realizm üslubunun əsasını qoymuşdur. Abay qazax ədəbiyyatında və mədəniyyətində bir çox yeniliklərə imza atmış, dilin və formanın zənginləşdirilməsində, şeirə yeni yanaşmalar gətirməkdə mühüm rol oynamışdır. O, şeirlərində xalqın həyatını, təbiətini və insanların iç dünyalarını təsvir etmiş, eyni zamanda qazax cəmiyyətindəki sosial məsələlərə diqqət çəkməyi vacib hesab etmişdir. Abay şeirlərinin və nəsrinin əksəriyyəti maarifçilik və sosial bərabərsizliklərin aradan qaldırılması ideyalarını daşıyır.

Abay Kunanbayevin yaradıcılığı, onun xalqının və vətəninin ağır şəraitdə yaşadığı dövrün poetik təsviridir. Abay qazax xalqının milli kimliyini və mənəvi yüksəlişini təmin etmək üçün şeir vasitəsilə ciddi ictimai, siyasi və əxlaqi məsələlərə toxunmuşdur. Onun şeirlərində, həm sosial ədalətsizliklərə, həm də şəxsi ağrılara dair dərin müşahidələr yer alır. 

**Sosial və siyasi tənqid**

Abay Kunanbayev, qazax xalqının çar məmurlarının özbaşınalığından, rüşvətxorluqdan və təhsilsizlikdən əziyyət çəkdiyini açıq şəkildə ifadə edir. O, çar hakimiyyətinin, feodal təbəqənin və məmurların xalqa qarşı olan amansız münasibətini tənqid edir. Xalqın nadanlığına və cahilliyinə qarşı çıxan şair, bu vəziyyətin səbəbi olaraq, həm də xalqın özünü göstərə bilməməsi və məmurların zəifliyi ilə əlaqələndirir. Onun şeirlərində xalqın zəiflikləri, rüşvətxor məmurların isə xalqa qarşı haqsızlığı vurğulanır.

**Şəxsi duyğular və ailə faciələri**

Abay Kunanbayevin şeirlərində yalnız ictimai və siyasi mövzular deyil, həm də şəxsi və ailə həyatı ilə bağlı dərdləri də yer alır. Şairin həyatının ən ağır anlarından biri, öz oğullarının ölümüdür. Abay, bu faciələrdən dərindən təsirlənmişdir və ölümün gətirdiyi qəm, onun şeirlərinə güclü şəkildə yansımışdır. Əbiş adlı oğlu, hələ gənc yaşda dünyasını dəyişəndə, şairin həyatında böyük boşluq yaradıb. O, oğlunun ölümünü "Abdurrahmanın ölümünə" şeirində təsvir edərək, bu faciəni dərin bir ağrı ilə qələmə almışdır.

**Eşq və Məhəbbət**

Abay Kunanbayevin yaradıcılığında məhəbbət də mühüm yer tutur. Eşq mövzusu onun şeirlərində dərin bir fəlsəfi mənaya malikdir. Abay eşqi yalnız gözəllik və arzu kimi təsvir etməmiş, həm də onun çətinliklər, həsrət və ağrı ilə əlaqəli olduğunu vurğulamışdır.

Eşq, Abay üçün bir "fədakarlıq" və "dərd" mənbəyidir. Şairin məhəbbət şeirlərində eşqin acısı və sevgilinin dönüklüyü ilə bağlı dərdli hisslər əks olunur. Onun məhəbbət fəlsəfəsi böyük bir mənəvi qurbanlıq və fədakarlığı tərənnüm edir.

**Xalq şeiri Abay Kunanbayev**

Abay Kunanbayevin şeirlərində xalq yaradıcılığı ənənələrindən geniş istifadə edilib. O, xalq şeirinin ritmik və melodik quruluşunu mənimsəyərək, bu ənənəni yeni bir səviyyəyə qaldırmışdır. Onun şeirlərində xalq müdrikliyinin və təfəkkürünün əks olunduğu görünür, həmçinin milli mədəniyyətin və təfəkkürünə sadiq qalaraq poeziya formasını yeni bir müstəviyə daşımışdır.

Abay qazax ədəbiyyatına yeni bir yanaşma gətirərək, sadə xalq dilini və üslubunu zənginləşdirib. O, xalq şeirini həm əxlaqi, həm də ictimai təhlil vasitəsi kimi istifadə etmişdir. Şairin yaradıcılığında həyatın və təbiətin hər kəsə aydın və sadə şəkildə təqdim edilməsi özünəməxsus üslub forması yaratmışdır.

Abay Kunanbayevin yaradıcılığı bir çox təbəqələrə toxunmuş və müxtəlif mövzulara yer vermişdir. Onun şeirlərində sosial və siyasi ədalətsizliklər, şəxsi faciələr, məhəbbət, ailə həyatı və xalq yaradıcılığı ənənələri əksini tapmışdır. Abay qazax xalqının müasirliyi, mədəniyyəti və mənəvi dəyərləri üçün mübarizə aparmış, dövrünün ən böyük şairlərindən biri olmuşdur. Onun şeirləri, qazax ədəbiyyatının inkişafında və xalqının mədəniyyətində əhəmiyyətli izlər qoymuşdur.

Abay Kunanbayevin şeirlərində qadın obrazı, ümumiyyətlə, ailə və şəxsi həyatın dərin mənəvi tərəflərini əks etdirir. O, qadınları adətən ağıl, sədaqət, məhəbbət və zəhmət simvolu kimi təqdim edir. Kunanbayevin ən məşhur şeirlərindən olan "Gəlinim Məhişə başsağlığı" və "Məhişin ağısı" şeirlərində qadın obrazları xüsusilə diqqət çəkir:



Göz yaşımla, Məhiş, sən də

Əlac tapmazsan bu dərdə.

Könlün sərxoş iztirabla,

İtkin böyük, dərdin dərin,

Mən tanışam bu əzabla,

Hökmündəsən qüssələrin.

Abay Kunanbayevin şeirlərində qadın obrazı çox vaxt idealizə edilərək, onların ailəyə olan sədaqəti, ağlı və daxili gücü ilə ön plana çıxarılır. Qadın, həm də acı və itkini dərk edən, sevgi və məhəbbəti daha dərindən hiss edən bir varlıq kimi təsvir edilir. Kunanbayevin qadın obrazları, hər zaman əxlaqi dəyərləri və müsbət xüsusiyyətləri simvolizə edir. Poemada insanın içindəki təkəbbür, var-dövlətə olan tamahkarlıq, ağıl və vicdanın önəmi, dövrün ictimai və mənəvi dəyərləri ələ alınır. Əsərdə, həmçinin İsgəndərin, insanı cəmiyyətin və öz daxilindəki çətinliklərlə başa çıxmağa çalışdığı, həm də Masqudun var-dövlət və ağıl arasında etdiyi seçimlərin gedişatı vacibdir.

**Abay Kunanbayevin fəlsəfi yanaşması**

Abay Kunanbayevin əsərində bəşəriyyətin ən böyük dərdlərindən biri olaraq var-dövlət və güc həsrəti təhlil edilir. İsgəndər və Aristotel arasındakı dialoqda, əsas məqsəd insanın acgözlüyü və hakimiyyət həsrətinin gətirdiyi faciələri göstərməkdir. Aristotelin verdiyi məsləhətə görə, qızıldan və var-dövlətə olan hərislikdən daha üstün və qiymətli olan şeylər var: vicdan, haqq, ədalət və insanlıq.

Bu fəlsəfi yanaşma, qızıl və var-dövlətin insanı nə qədər məyus edə biləcəyini göstərir, lakin həqiqi sərvət insanın ruhundadır və torpaq daima insanın ən yaxın, ən əziz dostudur.

İsgəndər bu səhnələrdə haqqın və əxlaqın qarşısında aciz qalır. Ona göstərilən göz çanağı – torpaqla doldurulmuş – həm əxlaqi, həm fəlsəfi bir dərs verir. Sümüklə dolmuş göz, qızıldan ağırdır, çünki bu dünyada, pulla deyil, vicdanla yaşayan insan daha dəyərli və ölümsüzdür. Bu həm də İsgəndərin özü üçün bir dərsdir, çünki o, hər şeyin hakimiyyət və sərvət üzərində qurulduğunu düşünürdü.

Abay Kunanbayevin əsərləri, xüsusilə “Əzim haqqında nağıl” və “Qara sözlər”, həm mövzu, həm də üslub baxımından dərin mənalarla doludur. Onlar, sadəcə bir nağıl və ya nəsihətnamə olaraq deyil, həm də insanların həyatını, mənəviyyatını və cəmiyyətin inkişafını müzakirə edən fəlsəfi bir işıqdır.

“Əzim haqqında nağıl” əsərində, Abay şərq nağıl ənənələrindən istifadə edərək, insanın həyat yolundakı sınaqları və daxili mübarizələrini təsvir edir. Bu poema bir tərəfdən nağıl tərzində yazılıb, digər tərəfdən isə insanın əxlaqi və mənəvi inkişafını göstərən dərslərlə zəngindir. Əsərdə, “Əzim” adlı gənc, atasının mirasını davam etdirərək, təhsil alır, zəhmət çəkir və çətinliklərə sinə gərir:

Əzim yaşa doldu keçdikcə illər,

Oxumaq zamanı çatdı müxtəsər.

Getdi mədrəsəyə oxudu əla,

Mustafa oğluna baxıb etdi fəxr.

“Qara sözlər” isə daha geniş bir əhatə dairəsinə sahibdir. Abay burada, öz xalqını cəhalətdən, tənbəllikdən, savadsızlıqdan qurtarmaq üçün müdrik kəlamlar təqdim edir. O, xalqa, insanın içindəki pislikləri aradan qaldırmaq və əxlaqi inkişaf əldə etmək üçün təhsil və əməksevərliyi mənimsəməsini tövsiyə edir. 

Nəhayət, qərara gəldim ki,

Kağız və qələmi özümə həmdəm edib,

Fikirlərimi kağıza köçürüm.

Bəlkə sözlərimdən hansısa kiminsə könlünə yatdı…

“Qara sözlər” əsərindəki müdrik kəlamlar, cəmiyyətin halını və insanın öz həyatını necə yönləndirə biləcəyini göstərən dərslərlə doludur. Abay xalqa savadlı və əxlaqlı bir cəmiyyət qurmaq üçün çağırış edir.

Sevdiyim xalqımın baxışlarında səhv,

Bir-birini canavar gözündə görüb,

Yaxınlarının halına yanmamasından,

İnsanlar bir-birinin varına, torpağına sahib olmaq istəyir.

İnsanların bir-birini anlamadığı, yalnız şəxsi maraqları güddüyü bir cəmiyyətdə yaşadığını qeyd edir və bu mənfi xüsusiyyətlərin kökündə cəhalətin və savadsızlığın olduğunu vurğulayır.

“Qara sözlər” əsəri, həm də Abay Kunanbayevin şair və mütəfəkkir olaraq, xalqa etdiyi çağırışdır. O, xalqını yalnız maddi rifah və zənginliklə deyil, əxlaqi, mənəvi və intellektual inkişafla da yüksəltməyə çalışır. Onun nəsihətləri bu gün də cəmiyyətin problemləri ilə bağlı dərin fikirlər verir.

Hər iki əsər, Abay Kunanbayevin insanlıq və cəmiyyətə dair dərin fikirlərini, həm də qazax xalqının təhsil və əxlaq yolunda necə irəliləməli olduğunu göstərən əhəmiyyətli bir mirası təmsil edir.

**Nəticə\Ending**

Abay Kunanbayev qazax xalqının müasir düşüncəyə və təhsilə yönəlməsini təşviq etmiş, onların milli dəyərlərini və kimliyini qoruyaraq, cəmiyyətin ümumi inkişafına xidmət edən bir şəxsiyyət olaraq tarixdə əhəmiyyətli bir yer tutmuşdur. Onun fəlsəfi düşüncələri, insanın daxili aləmini inkişaf etdirmək, əxlaqi və mənəvi dəyərlərə hörmət etmək, elmi və təhsili cəmiyyətin əsas təməli kimi görmək baxımından müasir dövrümüzdə də böyük bir məna daşıyır.

Abay həm də xalqının mədəniyyətini qorumağın və dünya mədəniyyəti ilə əlaqələr qurmağın vacibliyini vurğulamışdır. Onun sözləri bu gün də yalnız qazax xalqı üçün deyil, bütün dünya xalqları üçün əhəmiyyətlidir. Abay Kunanbayevin irsi, xalqını təhsilə, təfəkkürə və mədəniyyətə doğru istiqamətləndirərək, onların daha güclü və inkişaf etmiş bir gələcəyə addımlamalarını təmin etmişdir.Bu baxımdan, Abay Kunanbayevin fikirləri, həm milli, həm də beynəlxalq miqyasda əhəmiyyətli bir rəhbərlik rolunu oynayır və insanın inkişafı və təhsili ilə bağlı verilən mesajlar, zamanın ötüb keçməsi ilə daha da dəyərli olur. Onun varlığı və irsi, cəmiyyətin hər bir sahəsində insanları irəliləməyə, düşüncələrini inkişaf etdirməyə və əxlaqi dəyərləri qorumağa sövq edir

**Ədəbiyyat / References**

1. Quliyev E. Türk xalqları ədəbiyyatı. Bakı, 2011
2. Quliyev E. Türk xalqları ədəbiyyatı. Bakı, 2023

# YUNUS IMRA'S LYRICS
# YUNUS İMRƏNİN LİRİKASI

**LEYLA YUSİF QIZI İMANOVA**

**Azərbaycan Dövlət Pedaqoji, Universiteti, Filologiya fakültəsi, Azərbaycan dili və ədəbiyyat, müəllimliyi ixtiası**

**Xülasə.**

XII əsr türk sufi şairi olan Yunus İmrə geniş yaradacılıq irsinə sahibdir. Onun əsərlərinin böyük hissəsi sufiyanə eşq ilə bağlı olub əsərlərində Allahı, Allaha olan eşqi, Allaha qovuşmaq arzusunu dilə gətirir. Eyni zamanda eşqsiz insanlara da münasibət bildirmiş, onları qara daşa bənzətmişdir. Lakin onun yaradıcılığı bununla kifayətlənmir. Yunus İmrə Allaha qovuşmağın qismət payında elmi biliklərlə müqayisədə, qəlb və emosional “elm”in roluna üstünlük verir. “Din tamam olacaq doğar məhəbbət” deyən böyük sənətkar öz əsərlərində insana olan sevgi və məhəbbətin əsasında insanın Allahın bir parçası olması ideyasını rəhbər tutur. Y. İmrəyə görə məhəbbət qəlb, eşq isə ruh üçündür, məhəbbət isə eşqin başlanğıcı rolunda çıxış edir. Təsəvvüf ideyalarının hakim olduğu Yunus İmrə əsərlərində vəhdəti-vücud nəzəriyyəsini açıq-aydın sezirik. Vəhdəti-vücud nəzəriyyəsinin tələblərinə görə insanın öz şüuruna hakim olduğu “keçid mərhələsi”ndə nəfsə uyması şairi qorxudur, bunun Allah eşqinə mane olması fikri onun dərindən sarsıdır. Məqalədə Yunus İmrənin həyatı haqqında qəsa məlumat verilmiş, yaradıcılığının əsas məqamlarına toxunulmuşdur.



**Açar sözlər:** Yunus İmrə, təsəvvüf, din, məhəbbət, Allah

**Summary.**

Yunus Imre, a Turkish Sufi poet of the 12th century, has a wide creative heritage. Most of his works were related to Sufi love. In his works, he writers about God, his love for God and his desire to meet God. At the same time, he expressed his attitude towards loveless people and compared them to a black stone. But his creativity is not limited to that. Compared to scientific knowledge, Yunus Imra prefers the role of heart and emotional "knowledge" in the fate of meeting God. The great artist who said, "Religion will be perfect, love is born" is guided by the idea that man is a part of God based on the love and affection towards man in his works. According to Y. Imra, love is for the heart, and love is for the soul, and love acts as the beginning of love. In Yunus Imre's works, which are dominated by Sufism ideas, we can clearly sense the unity-existence theory. According to the requirements of the unity-body theory, the poet is frightened by the "transitional stage" in which a person dominates his own consciousness, and the idea that this hinders the love of God deeply shakes him. In the article, detailed information about Yunus Imre's life was given and the main points of his creativity were touched upon.

**Key words:** Yunus Imra, sufism, religion, love, God

## Giriş/ Introduction

Yunus İmrə XII əsr türk sufi şeirinin inkişafında mühüm rol oynamış, xalq ədəbiyyatı əsasında gözəl yaradıcılıq irsi yaratmış, ümumtürk ədəbiyyatı və mədniyyəti tarixinin önəmli, nəhəng simalarından biridir. Onun həyatı və qismən də yaradıcılığı haqqında dürüst faktlardan çox rəvayətlər mövcud olsa da, bir qədər həqiqət payı da vardır.

Yunus İmrənin anadan olması ilə bağlı bir neçə versiyalar mövcuddur. Yunus İmrə 1240(41)-ci ildə Sivri hasar yaxınlığında yerləşən Sarıköydə anadan olmuşdur. Digər bir ehtimala görə isə Yunus İmrənin mənsub olduğu ailə Anadoluya Xorasandan gəlmişdir. Deyilənə görə, həmin ailə əvvəlcə Qaramanda məskunlaşdığından Yunus İmrə burada anadan olmuş, sonralar bütün ailə Sakarya bölgəsində yerləşən Sarıköyə köçmüşlər.

**Əsas hissə / Main part**

Yunus İmrə "insanlıq tarixinin ən gözəl dəyərlərindən biri kimi" (Mustafa Tatcı) ümumtürk ədəbiyyatı və mədəniyyətinin inkişafında mühüm rol oynamışdır. Türk təsəvvüf ədəbiyyatının görkəmli nümayəndəsi hesab olunan Yunus İmrə Orta Asiyada Əhməd Yəsəvi ilə başlayan xalq təsəvvüf şeirini təxminən 150 il sonra Ön Asiyada yüksək zirvəyə çatdıraraq ədəbi məktəb yaratmışdır. Yunus İmrə, əsasən, türk milli şeir vəzni olan heca vəznində, dördlük şəklində, qismən də əruz vəznində yazmışdır. Əsərlərində Aşıq Yunus, Yunus Əmrəm, Yunus Əmrə, Miskin Yunus, Dərviş Yunus, Qoca Yunus, Yunus, Qul Yunus adlarından istifadə etmişdir. Yunus İmrənin ədəbiyyat aləminə heca və əruz vəznində yazılmış "Divan"ı, məsnəvi formasında yazılmış "Risalətün-Nushiyyə" ("Nəsihətnamə") adlı didaktik əsəri məlumdur. Bəzi mənbələrdə isə qeyd edilir ki, Yunus İmrənin 2 minə yaxın şeiri dövrümüzə qədər gəlib çatmamışdır. Bu barədə belə rəvayət olunur ki, 3 min şeir Molla Qasım adlı bir şəxsin əlinə düşür. Molla Qasım başqa əqidə sahibi olduğu üçün şeirləri bəyənmir və 1000 şeiri yandırır, 1000 şeiri suya atır. Növbəti şeirlərinin birində öz adının görür, etdiyi əməldən peşman olur və yerdə qalan şeirlərinə toxunmur. Beləliklə, 1000 şeiri xalqa gəlib çatır

Yunus İmrə "Divan"ında qəzəl, məsnəvi, ilahi, nəfəs və s. şeirlərindən istifadə etmiş, həm heca, həm də əruz vəznində yazmışdır. Bu divanın bir neçə nüsxəsi mövcuddur ki, bunlardan da "Fateh", "Qaraman", "Bursa" nüsxələri nisbətən ən qədim və ən doğru nüsxələr hesab olunur.



Qeyd etmək lazımdır ki, "Divan"da olan bütün şeirləri Yunus İmrə yaradıcılığına aid etmək bir qədər qəlizdir. Yunus İmrənin yaşadığı dövrdə və ondan sonrakı dövrlərdə adı və yaradıcılığı o qədər məşhur və müqəddəsləşdirilmişdir ki, həm onun təxəllüsü ilə, həm də başqa təxəllüslərlə onun tərzində şeirlər yazılmış və daha sonra divana əlavə olunmuşdur.

Yunus İmrənin "əslim Haqdır şək deyil, nam oldu insan mənə" deməsi onun Tanrı şairi olduğunu təsdiqləyir. Yunus İmrə "əslim Haqdır" deməklə, varlıq, insan və könül – ruh mövcudluğunda özünün irfani missiyasını təqdim edir. Allahı qəlbinə hakim etmiş şairin ruhi-mənəvi məramı bu misralarla bizə məlum olur:

**Mən gəlmədim dava üçün,**

**Mənim işim sevda üçün,**

**Dostun evi könüllərdir,**

**Könüllər yapmağa gəldim.**

**Mənim dilim quş dilidir,**

**Elim mənim dost elidir,**

**Mən bülbüləm, dost gülümdür,**

**Bilin, gülüm solmaz mənim.**

Yunus İmrə şeirləri ilə ilk növbədə insanları Allaha doğru qanadlandıraraq könüllərində zərrənin (insan) bütövə (Allah) "birləşmək" ümidlərini artırır:

**Sənsiz yola girir isəm,**
**Çarəm yox addım atmağa.**
**Gövdəmdə qüvvəti sənsən,**
**Başım götürüb getməyə.**

**Könlüm, canım, əqlim, elmim,**
**Sənin ilə qərar edər.**
**Can qanadı açıq gərək,**
**Uçuban dosta getməyə.**

**Tutulmadı Yunus canı,**
**Keçdi tamudan, uçmağı.**
**Yola düşüb, dosta gedər,**
**Ol əslinə uyarmağa.**



Vəhdəti-vücud fəlsəfəsinə uyğun olaraq, Yunus İmrə zahiri (mədrəsə) və batini (irfan, həqiqət) elmlər sırasında ikincinin Allahı dərk etmək yo lunda vacibliyini daha çox önə çəkir:

**Elm eli bilməkdir,**
**Özünü dərk etməkdir.**
**Sən özünü bilməsən,**
**Elm nəyə gərəkdir.**

**Oxudun nə mənası,**
**Əgər haqqı bilməsən.**
**Haqqı ki, bilmədin sən**
**Demək, quru əməkdir**.

Y.İmrə eyni zamanda Allaha qovuşmağın qismət payında da elmi biliklərlə müqayisədə, könül və duyğu "bilim"inin roluna üstünlük verir:

**Elm ilə, hikmət ilə**
**Kimsə bu sirrə çatmaz.**
**Bu bir əcaib sirdir**
**Elmə, kitaba sığmaz.**

və yaxud,

**Ey çox kitablar oxuyan,**

**Halıyam səndən, mənə bax!**

**Sirri aşkar istər isən**

**Gəl eşq kitabın oxuyaq.**

Sufi şair olan Yunus İmrə "könül gözünün açılmasını aşiq, məşuq" halında axtarmaqda olduqca haqlıdır. Onun eşqi məcazi- insana olan eşq deyil, həqiqi-Allaha olan eşqdir. Yunus İmrənin aşiqliyinin səbəbləri və eşqə mübtəla "mən"ninin Tanrıya doğru uzanan yolda son məqama yetişmək arzuları "Bir mən vardır məndə məndən içəri" cümlələri ilə açıq aşkar aydın olur:

**Eşqin aldı məndən məni,**

**Mənə səni gərək, səni.**

**Mən yanaram dünən, bu gün,**

**Mənə səni gərək, səni.**

"Əvvəl yer-göy yox idi, var idi eşq büynadi" misraları ilə Yunus İmrə fəlsəfəsi eşq tarixinin insanlığın tarixi qədər qədim və əzəli olduğunu təsdiq edir. Eşqin zatı və mahiyyətini Y. İmrə eşqin dini-fəlsəfi mahiyyətini ilahi-müqəddəslik çərçivəsində təqdim edərək açıqlayır:

**Eşq anadan doğmadı, kimsəyə qul olmadı,**

**Hökmülə əsir qılır cümlə-bilişi-yadı.**

**Nəticə\ Conclusion**



Y.İmrə türk təsəvvüf ədəbiyyatının görkəmli nümayəndəsi kimi türk dünyasının, eləcə də müsəlman şər qinin zəngin ənənələri zəminində özünəməxsus yaradıcılıq formalaşdırmış, özündən sonrakı ədəbiyyatın inkişafında mühüm rol oynamışdır. Yunus İmrə şeiri, Yunus İmrə yaradıcılığı özündən sonra gələn çox şairlər üçün məktəb, bulaq olmuşdur. İstər Azərbaycan, istərsə də türk şairlərinin çoxu bu məktəbdən bəhrələnmiş, bu bulaqdan su içmişlər. Məhz buna görədir ki, min ilə yaxın zaman keçməsinə baxmayaraq, Yunus Əmrənin şeirləri hələ də bütün Türk dünyasında sevə-sevə oxunur, öyrənilir, araşdırılır. Yəqin ki, hələ bundan sonra da illər, əsrlər keçməyinə baxmayaraq, bu şeirlər ümumtürk xalqının əzbərində olacaq.

**Ədəbiyyat\ References**

1. Quliyev E. Türkiyə türk ədəbiyyatı. Bakı, 2014.
2. Quliyev E. Türkiyə türk ədəbiyyatı. Bakı, 2023.
3. Y. İmrə "Güldəstə" şeirlər kitabı. Bakı, 1997.

# ISMAYIL BEY GASPRINSKI'S NOVEL WRITING

# İSMAYIL BƏY QASPİRALININ ROMAN YARADICILIĞI

**MURADLI AYTAC MAHİR QIZI**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti, Filologiya Fakültəsi, Azərbaycan Dili Və Ədəbiyyat Müəllimliyi İxtisası**

**Xülasə.**İsmayıl bəy Qaspiralı (1851–1914) türk dünyasının görkəmli maarifçi yazıçılarından biri olub, əsərlərində cəmiyyətin tərəqqisi və maariflənməsi mövzularını əhatə etmişdir. Onun romanları əsasən Şərq və Qərb mədəniyyətlərinin qarşılıqlı təsirini əks etdirir və türk millətinin sosial, iqtisadi problemlərinə diqqət çəkir.Qaspiralının "Firəngistan məktubları", "Darürrahat müsəlmanları", "Sudan məktubları", "Qadınlar ölkəsi" və "Molla Abbas Franseviyə təsadüf" əsərləri Şərq cəmiyyətlərinin modernləşməsi zərurətini və maarifçilik ideyalarını önə çıxarır. Molla Abbas adlı qəhrəmanın macəraları vasitəsilə Avropa və Afrika ölkələrindəki fərqli mədəniyyətlər təsvir edilir. Onun "Arslan qız" və "Gündoğdu" kimi əsərləri isə vətənpərvərlik, qəhrəmanlıq və qadınların rolunu vurğulayır.

**Açar sözlər:** İsmayıl bəy Qaspiralı, maarifçilik, Türk dünyası, Şərq və Qərb mədəniyyətləri, modernləşmə, vətənpərvərlik, qadın hüquqları, sosial dəyişikliklər roman yaradıcılığı

**Abstract.**Ismayil Bey Gasprinski (1851–1914) was one of the prominent reformist writers of the Turkic world, focusing on themes of societal progress and enlightenment in his works. His novels primarily reflect the mutual influences between Eastern and Western cultures and address the social and economic issues of the Turkic nations.Gasprinski's works, such as *"Letters from France"*, *"Muslims of Darürrahat"*, *"Letters from Sudan"*, *"The Land of Women"*, and *"Molla Abbas Meets the French"*, emphasize the necessity of modernization in Eastern societies and advocate for enlightenment ideas. Through the adventures of Molla Abbas, the novels depict the diverse cultures of European and African countries. His other works, such as *"Arslan Girl"* and *"Gündoğdu"*, highlight patriotism, heroism, and the role of women in society.

**Keywords:** Ismayil Bey Gasprinski, enlightenment, Turkic world, Eastern and Western cultures, modernization, patriotism, women's rights, social changes, novel writing



## Giriş / Introduction

Türk dünyasının maarifçi fikir axınının görkəmli nümayəndəsi olan İsmayıl bəy Qaspıralı, həm ədəbi, həm də ictimai fəaliyyətləri ilə türk xalqlarının milli dirçəlişində mühüm rol oynamışdır. Onun roman yaradıcılığı, əsasən, maarifçilik ideallarını əks etdirərək, türk toplumlarının sosial, mədəni və mənəvi problemlərini dərindən təhlil edən əsərlər təqdim edir. Qaspıralının əsərlərində əsas məqsəd oxuculara milli şüurun əhəmiyyətini aşılamaq və maarifləndirici təsir göstərmək olmuşdur.

## Əsas hissə / Main part

İsmayıl bəy Qaspiralı yalnız maarifçilik fəaliyyəti ilə deyil, həm də dövrün mədəni və intellektual mühitini formalaşdırmağa çalışan ədəbiyyatçı kimi tanınır. Onun roman yaradıcılığı dövrün intellektual diskursuna maarifçilik və islahatçılıq ideyalarını daxil etmək məqsədi daşıyırdı. Bu əsərlər ədəbi baxımdan kompleks olmasa da, cəmiyyətin islahı, təhsilin və Qərb mədəniyyətinin əhəmiyyəti haqqında dərindən düşünülmüş mesajlarla doludur.

1. "Darürrahat Müslümanları"

"Darürrahat Müslümanları" İsmayıl bəyin yazdığı utopik janrda ilk nümunələrdən biridir. Əsərdə ideal bir müsəlman cəmiyyətinin təsviri verilir. Bu xəyali ölkədə insanlar yüksək intellektual səviyyəyə malikdir, müasir texnologiyaları mənimsəyiblər və İslamın əxlaqi dəyərlərini müasir elmlə uyğunlaşdırıblar.

Əsər təhsilin cəmiyyətin inkişafındakı əvəzsiz rolunu vurğulayır. Darürrahat ölkəsində hər bir fərd maariflənmişdir, savadsızlıq yoxdur, bu da cəmiyyətin inkişafını təmin edir.İsmayıl bəy burada İslamın əsl ruhunun inkişafla ziddiyyət təşkil etmədiyini göstərməyə çalışır. Onun fikrincə, müsəlman cəmiyyəti yalnız İslamın humanist və əxlaqi dəyərlərini modernləşdirərək tərəqqiyə nail ola bilər.

Cəmiyyət içərisindəki harmoniya maarifləndirmə və ədalət prinsiplərinə əsaslanır. Müəllif, mədəniyyətlərin qarşılıqlı təsirinin də vacibliyini vurğulayır.

Darürrahat ölkəsində müsəlmanlar nəinki mədəniyyət və texnologiyada inkişaf etmişlər, həm də ictimai nizam-intizamla fərqlənirlər. Qaspiralının bu təsviri, əslində, real həyatda mövcud olan problemlərə – tənbəllik, savadsızlıq və siyasi gerilik – qarşı yönəlmiş tənqidi bir yanaşmadır.

2. "Fransızca Mektuplar"

"Fransızca Mektuplar" məktublar formasında yazılmış bir əsərdir. Bu format müəllifin fikirlərini daha şəffaf və oxucuya yaxın tərzdə ifadə etməsinə imkan yaradır. Məktublarda İsmayıl bəy, Qərb ölkələrinə səyahət etmiş bir şəxsin dilindən Avropa cəmiyyətini və mədəniyyətini təsvir edir.

Avropa cəmiyyətlərinin nizam-intizamı, maarifçiliyi və elmi nailiyyətləri ilə Şərq cəmiyyətlərinin geriliyi müqayisə edilir. İsmayıl bəy, müsəlman aləminin Qərbin pozitiv tərəflərini mənimsəməsinin vacibliyini vurğulayır.



O, Avropanın müasir təhsil sistemi, qadınların hüquqları və ictimai azadlıqlar sahəsindəki irəliləyişlərini oxucuya çatdırır. Eyni zamanda, müsəlman dünyasının bu məsələlərdəki zəif cəhətlərini açıq şəkildə göstərir. Qərb həyat tərzinin bəzən mənəviyyatdan uzaqlaşdığına dair fikirlər də məktublarda öz əksini tapır. Bu, müəllifin balanslı yanaşmasını göstərir.Məktublar təkcə bədii deyil, həm də tərbiyəvi xarakter daşıyır. Məqsəd oxucunu Qərbin inkişafından ilham alaraq öz cəmiyyətindəki problemləri həll etməyə təşviq etməkdir.

Hər iki əsərdə müəllif maarifçilik ideyalarını utopik təsvirlərlə təqdim edir. Bu yanaşma, Qaspiralının dövrün sosial və intellektual tələblərinə uyğun olaraq, müsəlman cəmiyyətinin yenidən qurulması arzularını əks etdirir.Onun əsərləri sadə və anlaşılan dildə yazılmışdır ki, bu da geniş oxucu kütləsinə ünvanlanmışdır.Qaspiralı əsərlərində real problemləri təsvir etsə də, onların həll yollarını idealist baxışlarla təqdim edir. Bu, onun maarifçi bir müəllif kimi mövqeyini gücləndirir.

Cəmiyyətə Təsiri: Qaspiralının əsərləri müsəlman aləmində maarifçilik düşüncələrinin inkişafında əhəmiyyətli rol oynadı. Əsərlərindəki mesajlar gənc nəslin intellektual inkişafını stimullaşdırdı və İslam dünyasında modernləşmə hərəkatına təsir etdi.

Romanlar vasitəsilə İsmayıl bəy, qadınların təhsil hüququnun genişləndirilməsi və ümumi təhsilin vacibliyi kimi məsələlərə diqqət çəkdi.Qaspiralının əsərləri yalnız Osmanlı imperiyası və Krım-Tatar bölgələrində deyil, bütün türk-müsəlman dünyasında maarifçilik hərəkatının tərkib hissəsinə çevrildi.

**Nəticə / Conclusion**

İsmayıl bəy Qaspıralının roman yaradıcılığı, sadəcə bir ədəbi fəaliyyət olmaqla kifayətlənmir, həm də türk xalqlarının milli-mənəvi dirçəlişi yolunda atılmış böyük addımlardan biri kimi qəbul edilir. Onun əsərləri, təkcə öz dövrü üçün deyil, müasir dövr üçün də dəyərli mənbə kimi qalmaqdadır. Romanları o dövrün ənənəvi yazı üslubundan fərqli olaraq daha sadə və anlaşılan dil ilə yazılmış, geniş oxucu kütləsinə çatmaq məqsədi daşımışdır.Qaspıralının romanları, oxucularını milli şüur və maarifləndirmə ideyaları ətrafında birləşdirmək, eyni zamanda onların intellektual səviyyəsini artırmaq missiyasını uğurla yerinə yetirmişdir. Bu da onu türk ədəbiyyatının və mədəniyyətinin əvəzolunmaz simalarından birinə çevirir.

**Ədəbiyyat / References**

1. Quliyev E. Türk xalqları ədəbiyyatı. Bakı, 2023
2. Ağaoğlu Ə. İsmayıl bəy Qaspıralı. Bakı, 2008
3. İnal S. Türk Dünyasında Maarifçilik: İsmayıl Qaspıralının Rolu. Ankara, 2020
4. Məmmədova S. "Qaspıralının Modernləşmə Hərəkatına Təsiri". Bakı, 2017

# THE ROLE OF MAGTYMGULY PYRAGY IN THE FORMATION AND DEVELOPMENT OF THE NEW-STYLE CLASSICAL TURKMEN POETRY

# YENİ TİPLİ KLASSİK TÜRKMƏN ŞEİRİNİN FORMALAŞMA VƏ İNKİŞAFINDA MƏXTUMQULU FƏRAQİNİN ROLU

**SEYİDOVA MƏTANƏT LOĞMAN QIZI**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti, Filologiya Fakültəsi, Azərbaycan Dili Və Ədəbiyyat Müəllimliyi İxtisası**

**Xülasə.**

Şair Dövlətməmməd Azadi oğlu, XVIII əsr türkmən ədəbiyatının görkəmli nümayəndəsi Məxtumqulu Fəraqi böyük mütəfəkkir şairi, mövzu və formasına görə yeni ədəbiyyatın yaradıcısı kimi şöhrət qazanmışdır. Xalq və klassik şeir ənənələri zəminində inkişaf edən XVIII əsr türkmən ədəbiyyatı Məxtumqulu Fəraqi yaradıcılığı ilə yeni tarixi inkişaf mərhələsinə qədəm qoymuşdur. Məxtumqulu XVIII əsr klassik türkmən ədəbiyyatında realist şeirin əsasını qoymuşdur. Onun sənəti geniş mövzu dairəsi ilə seçilir. Bu məqalə Məxtumqulu Fəraqinin Yeni tipli klassik türkmən şeirinin formalaşma və inkişafında rolunun tədqiqinə həsr edilmişdir. Məqalədə Məxtumqulu Fəraqinin ictimai-siyasi, fəlsəfi, məhəbbət, didaktik, tərcümeyi-hal xarakterli və s. şeirlərində türkmən xalqının həyatı və tarixi ilə tanış olmaqla bərabər həm də bu xalqın mənəvi-əxlaqi, psixoloji düşüncəsinin səviyyəsini də müəyyənləşdirmək mümkündür.



**Açar sözlər:** Məxtumqulu Fəraqi, lirik şeir, yeni tipli şeir, realist şeir, yeni mövzu

**Abstract.**

Poet Magtymguly Pyragy, the son of Dowletmammet Azadi and a prominent figure of 18th-century Turkmen literature, gained fame as a great philosophical poet and the creator of new literature in terms of themes and forms. Turkmen literature of the 18th century, which developed based on folk and classical poetic traditions, entered a new historical stage of development with the works of Magtymguly Pyragy. He laid the foundation for realistic poetry in 18th-century classical Turkmen literature. His art stands out for its wide range of themes. This article is dedicated to studying the role of Magtymguly Pyragy in the formation and development of the new-style classical Turkmen poetry. Through his social-political, philosophical, love, didactic, autobiographical, and other types of poems, it is possible not only to learn about the life and history of the Turkmen people but also to determine the level of their moral-ethical and psychological thinking.

**Keywords:** Magtymguly Pyragy, lyrical poetry, new-style poetry, realistic poetry, new themes

**Giriş / Introduction**

Şair Dövlətməmməd Azadi oğlu, XVIII əsr türkmən ədəbiyatının görkəmli nümayəndəsi Məxtumqulu Fəraqi böyük mütəfəkkir şairi, mövzu və formasına görə yeni ədəbiyyatın yaradıcısı kimi şöhrət qazanmışdır. Türkmənistan dövlət və elmi dairələrin məqsədyönlü fəaliyyəti nəticəsində Beynəlxalq TÜRKSOY təşkilatı 2014-cü ili "Türkmən şairi Məxtumqulu ili" elan edilməsinə nail olub. Beləlilklə, Məxtumqulu Fəraqi yaradıcılığı müxtəlif ölkələrdə oxucuların diqqətini cəlb etməyə başlayıb.

Müstəqillik illərində Azərbaycanda da Məxtumqulu irsinin öyrənilməsi, təbliği və nəşri istiqamətində işlər daha da sürətlənmişdir. Məhtimqulunun ilk dəfə kiçik bir kitabı Azərbaycanda 1984-cü ildə işıq üzü görsə də, 2000-ci illərdən başlayaraq, konkret desək, 2010 və 2014-cü ildə daha mükəmməl nəşrlər meydana çıxmağa başladı.

**Əsas hissə / Main part**

Məxtumqulu Fəraqi yaradıcılığına iki əsas ideoloji istiqamət xasdır. Bir tərəfdən Məxtumqulu türkmən xalqının milli şüurunun formalaşmasında önəmli rol oynayıb, digər tərəfdən isə onun yaradıcılığında ümumtürk dəyərlərinin təbliğinə geniş yer ayırıb. Onun yaradıcılığında bu iki istiqamət bir-birinə qarşı ziddiyyət təşkil etmir, harmonik şəkildə özünü büruzə verir.

Xalq və klassik şeir ənənələri zəminində inkişaf edən XVIII əsr türkmən ədəbiyyatı Məxtumqulu Fəraqi yaradıcılığı ilə yeni tarixi inkişaf mərhələsinə qədəm qoymuşdur. Məxtumqulu XVIII əsr klassik türkmən ədəbiyyatında realist şeirin əsasını qoymuşdur. Tədqiqatçılar haqlı olaraq onun sənətinin realist təsvir üsulu və dil-üslub xüsusiyyətlərinə görə M.P.Vaqif və A.S.Puşkin yaradıcılığı ilə müqayisə edirlər. M.Fəraqi yaradıcılığı əsasən türkmən həyatı ilə bağlıdır. O, türkmən xalqının həyat tərzi, məişəti, dünyagörüşü və s.cəhətlər əksini etdirmişdir. Onun sənəti geniş mövzu dairəsi ilə seçilir. M.Fəraqinin ictimai-siyasi, fəlsəfi, məhəbbət, didaktik, tərcümeyi-hal xarakterli və s. şeirlərində türkmən xalqının həyatı və tarixi ilə tanış olmaqla bərabər həm də bu xalqın mənəvi-əxlaqi, psixoloji düşüncəsinin səviyyəsini də müəyyənləşdirmək mümkündür.

M.Fəraqinin həyatı XVIII əsr türkmən ictimai-siyasi proseslərinin ən gərgin və acınacaqlı dövrünə təsadüf edir. Tayfa və feodal çəkişmələrinin, ölkələrarası müharibələrin türkmən xalqının həyatına vurduğu ağır zərbələr bir vətəndaş kimi Məxtumqulunu narahat etmiş, onun qəlbini ağrıtmış, yaradıcılığında bir haray, etiraz motivinə çevrilmişdir. Şairin ictimai-siyasi şeirlərində əsas hədəf və tənqid obyekti zəmanə eybəcərlikləri olmuşdur:



Haray, dostlar, ömür-gün

Keçdi, deyib ağlaram.

Ağlım getdi başımdan

Çaşdı, deyib ağlaram

Türkmən tayfalarını birliyə çağırış, xalqını azad görmək istəyi, daxili çəkişmələrə son qoyub, doğma yurdunu düşmən tapdağı altına düşməyə qoymamaq şairin yaradıcılığının əsas leytmotivinə çevrilib. Türkmən xalqının rifahını düşünən Məxdumqulunun "Görülsün indi" şeirində türkmən tayfalarını birliyə çağırışı səslənir:

Fəraqi üz tutar türkmən elinə,

Düşmən əl vurmasın qızıl gülünə,

Dostlar, bizi axirətin selinə,

Qərq etməmiş, rəqib çapılsın indi.

Ölkəsinin, xalqının müharibə fəlakəti ilə üzləşməsi nəticəsində kənd və şəhərlərin xarabazara çevrilməsi, insan talelərinin faciələrə düçar olması hallarının tənqidi Məxtumqulu lirikasında geniş yer alır:

Mərd igidlər düşdü eldən dərbədər,

Kimə ağız açsın indi bu ellər,

Hanı bizim o gül, çəmən, bülbüllər,

Gözlərimi örtən qana neyləyim?

Əsir gördüm qələmi mən, sözü mən,

Gurlayır qul dolu bazar səhərdən.

El namusu hanı? Geyib ruh kəfən

İnlər tənha, gəlib cana, neyləyim?

Onun oğuz türk şivəsində qələmə aldığı poetik örnəkləri ortaq türk dilində yazılmış ədəbiyyatın parlaq nümunələri hesab etmək olar. Bu baxımdan böyük söz ustasının "Türkmənin" qoşmasından aldığımız aşağıdakı iki bənd Türkmənistanın himni kimi qüvvətli səslənən mükəmməl sənət nümunəsidir:

Ceyhun ilə Bəhri Xəzər arası Çöl üstündən əser yeli türkmənin. Gül qönçəsi, qara gözüm qarası Qara dağdan ener seli türkmənin.

M.Fəraqi "Ceyhun ilə bəhri Xəzər" arasında yaşayan, özünün tarix və mədəniyyətini yaradan türkmənlərin bu günkü həyat tərzi, gələcək arzularını özündə əks etdirən " Türkmənin", "Türkmənin binası", "Yıxmayan ərdən", "El yaxşı" şeirlərində sevgi yanğısı dolu hisslərinin tərənnümü dayanır. Əslində bu cür yanaşmasında şair xalqı ilə bağlı özünün gələcək arzu, istək və ümidlərinin bədii tərənnümünə meydan verir.

Məxtumqulunun şeirlərində ənənəvi-mədəni və dini dəyərlərin əksini tapması Allah eşqinin tərənnümü və inandığı o eşqi getdiyi ömür yoluna çevirir. O yolun haqq yolu olmasını Məxdumqulu "Alacaqdır" şeirində deməklə insanı Haqq yoluna səsləyir. Bu səsləyişdə bir ağsaqqal nəsihəti də duyulur. 

Qulluq et qadir Xudaya,

Ömrünü ötürmə zaya

Doğma xalqına qırılmaz tellərlə bağlı olan Məxtumqulu Fəraqinin dini məzmunlu şeirləri çoxdur. "Seyran içində" şeirində ölməyin də dirilməyin də haqq olmasını vurğulayan şairin fəlsəfi ifadə tərzi özünü qabarıq göstərir;

Məxdumqulu, sirrim çoxdur,

Mən neyləyim, açan yoxdur,

Ölmək haqq, dirilmək haqqdır,

Oxudum "Quran" içində.

İslam dininin müqəddəs və ən əsas kitabı olan "Qurani- Kərim" Allahın buyurduğu sözlərdir, mələyi vasitəsi ilə Hz. Məhəmmədə vəhy edilib. Bu müqəddəs kitabı oxumasını şair qürurla tərənnüm edir.

Müharibələr, feodal qarşıdurmaları nəticəsində M.Fəraqi də vətəndən didərgin düşmüş və bir müddət vətən həsrəti ilə qürbətdə acınacaqlı həyat yaşamışdır. Şair cəhənnəm əzablı qürbətdə "namərdə, zalıma möhtac olmamaq", "əslinə qovuşmaq" naminə güc və qüvvət payı almaq üçün tanrıya üz tutur:

Kərəm eylə, yarəb, qüdrətli sübhan,
Qərib-qəmgin keçən halıma mənim
Özüm peşimanam, ağlım da heyran
Başımdakı qeylü-qalıma mənim.

Şairin eşq qəhrəmanı məhəbbətində sədaqətlidir. Məhəbbət qulu olan bu insanı sevgilisinin vüsal ümidi yaşadır, onu həyata bağlayır. O, əslində Allahın ona verdiyi ömrü yox, əsiri olduğu gözəlin ona bəxş etdiyi "vüsal" ömrünü yaşamaq istəyir. Ona görə də bu ömürdən pay almayanda ayrılıq odu onu tez yandırıb kül edir.

Məxtumqulu, bəy idim, yar camalı qul etdi,
Vüsal ümidim verib, min dilli bülbül etdi,
Ayrılıq oda saldı, gendə durub əl etdi,
Eşqin atəşi artıb, yaxıb məni kül etdi,
Qəm ələyin ələyib, yelə sovurdu məni.



Ulu öndər Heydər Əliyev "bir millət iki dövlət" prinsipini əsas götürərək Türkiyə ilə Azərbaycan arasında birliyin, inkişafın, siyasi marağların təməlində doğmalıq və qardaşlıq münasibətlərinin dayandığına xüsusi önəm vermişdir. Heydər Əliyev Azərbaycanla Türkiyə arasındakı qardaşlığın təməlində milli-tarixi bağlarla yanaşı, Atatürk ideyalarının da mühüm rol oynadığını xüsusi qeyd etmişdir. Heydər Əliyev bir çox çıxış və müsahibələrində Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir " sözlərini dilə gətirməklə Atatürk ideyalarında mövcud olan prinsipial Azərbaycan sevgisindən məmnunluq duymuş və Azərbaycanın Türkiyəyə münasibətində eyni mövqedə olduğunu xüsusi şəkildə qeyd etmişdir. Ulu öndər Heydər Əliyevin 8 may 1997-ci il tarixində "Çırağan" və "Suis" otellərində Türkiyənin "TRT", "Samanyolu", "NTV" televiziya kanallarının rəhbəri və Türkiyənin iş adamları ilə görüşlərindəki çıxışlarında həm Atatürkə olan rəğbətin şahidi olur, həm də Atatürkün Azərbaycanla bağlı atdığı addımların xarakter və əhəmiyyəti açıqlanır: "Türkiyə də, biz də böyük öndər Mustafa Kamal Atatürkün sözlərini tez-tez xatırlayırıq. O vaxtilə demişdir ki, Azərbaycanın dərdi bizim dərdimizdir, Azərbaycanın sevinci bizim sevincimizdir. Biz də deyirik ki, Türkiyənin dərdi bizim dərdimizdir, Türkiyənin sevinci bizim sevincimizdir. Mustafa Kamal Atatürk nə qədər müdrik adamdır. Bu sözləri hələ 30-cu illərdə demişdir. Onda hələ Ermənistan Azərbaycan arasında belə savaş, münaqişə yox idi, qan tökülmürdü. Ancaq o – böyük Mustafa Kamal Atatürk 1918-1920-ci illərdə həmin o erməni müəlliflərinin, daşnaklarının azərbaycanlıların başına nə bəlalar gətirdiklərini yaxşı bilirdi. Məhz Mustafa Kamal Atatürkün və onun kimi insanların iradəsi nəticəsində 1918-1920-ci illərdə Türkiyənin Qafqaz ordusu Azərbaycana gəldi, Naxçıvanda, Qarabağda, Gəncədə, Bakıda azərbaycanlıları erməni qırğınından xilas etdi. Biz bunları unutmuruq". Mustafa Kamal Atatürkün Azərbaycanla bağlı atdığı addımları sadalayarkən Heydər Əliyevin tarixə səyahəti məqsədli səciyyə daşıyır və bu yanaşma bir neçə baxımdan əhəmiyyət kəsb edir. Bu yanaşmada Atatürkün Azərbaycan sevgisi, türkün türkə qardaşlıq münasibəti, erməni daşnaklarının Azərbaycanın müxtəlif bölgələrində törətdikləri soyqırım hadisələri diqqətə çatdırılır və ən başlıcası isə Azərbaycan-Türkiyə qardaşlığının əbədiliyinə inam nümayiş etdirilir.



Heydər Əliyev Atatürkün Türkiyə üçün xidmətlərindən danışarkən onun dövlət quruculuğu fəaliyyətinə xüsusi önəm verir. O, Atatürkün müstəqil dövlət quruculuğu yolunda atdığı addımları alqışlayır, bu günkü Türkiyənin uğurlarının təməlində Atatürk ideyalarının dayandığını fəxr ilə diqqətə çatdırır. Heydər Əliyev Atatürkün dövlət yaratmaq yox, həm də dövləti yaşatmaq və inkişaf etdirmək yollarındakı xidmətlərini də təqdir etmiş, Türkiyənin milli-mənəvi dəyərlərə bağlı olmasında və bəşəri ideyalara inteqrasiyasında Atatürk yolunun əhəmiyyətinə böyük dəyər vermişdir. Heydər Əliyevin 30 oktyabr 1998-ci ildə İstanbulda "Mərmərə" qrupunun Strateji Araşdırmalar Vəqfinin keçirdiyi mərasimdəki nitqində Atatürkün Türkiyənin dövlətçilik tarixində tutduğu mövqe belə dəyərləndirilir: "Mustafa Kamal Atatürk Cümhuriyyəti yaratdı, amma eyni zamanda da onu qurdu, yaşatdı. Şübhəsiz ki, hər bir yeni işi yaratmaq asan deyil. Bu böyük iradə, ağıl, qəhrəmanlıq tələb edir. Ancaq qurulan hər bir şey yaşaya bilmir, Mustafa Kamal Atatürkün xidmətləri bir də ondan ibarətdir ki, o, Türkiyə Cümhuriyyətinin nəinki əsasını qoydu, həm də onu qurdu, onun bütün təsisatlarını yaratdı, onu yaşatdı, böyük dövlət etdi, bu günkü nəsillərə, gənclərə əmanət edərək özünü əbədiyyətə qovuşdurdu". Diqqət etdikdə görürük ki, Heydər Əliyev Atatürkün dövlət quruculuğu fəaliyyətindən danışarkən dövlətçilik üçün vacib olan bütün detallara toxunmuş, Atatürkün qurucu rəhbər obrazını göz önünə gətirməklə Atatürk yolunun uğurlarından bəhs açmış, bu günkü nəsli Atatürkə hədsiz hörmət və sədaqət ruhunda tərbiyələndirməyə çağırış

etmişdir: "Böyük öndər Mustafa Kamal Atatürkün xidmətləri bu gün hər kəsin gözünün önünə gəlir. O, hər kəsin ürəyindədir... Biz Azərbaycanda çox sevinirik və fəxr edirik ki, Türkiyə Cümhuriyyəti ardıcılı olaraq, davamlı, sürətlə, inamla Mustafa Kamal Atatürkün yolu ilə gedir".

Heydər Əliyev Atatürk şəxsiyyətinə müasir Türkiyənin və türk xalqının bir zamanlar yaşamış olduğu keşməkeşli tarixi olaylar prosesində dəyər verir, bu məqsədlə onun misilsiz lider və böyük rəhbər keyfiyyətləri üzərində xüsusi dayanır. Eyni taleyi yaşayan insan kimi Heydər Əliyevin Atatürkə bu kontekstdə münasibətində Atatürk ucalığının mahiyyəti və təfərrüatları açıqlanır, tarixi simvola çevrilən Atatürk şəxsiyyətinə olan sevgi və rəğbətin səbəblərinə cavab tapılır. Qeyd etməliyik ki, Heydər Əliyevin natiqlik məharəti, o cümlədən təfərrüatları üzə çıxarıb mahiyyət müstəvisində dəyərləndirmək səriştəsi Atatürklə bağlı hər hansı analitik fikrin ortaya çıxmasını təmin edir. Məsələn, Atatürkün "Yurdda sülh, cahanda sülh, bölgədə sülh" prinsiplərini Azərbaycanın Qafqaz siyasəti üçün örnək hesab edən Heydər Əliyev müəyyən məqamlarda Atatürk yolunun Azərbaycan üçün də əhəmiyyət kəsb etdiyini açıq etiraf etməkdən çəkinmir.

Ulu öndərimiz Heydər Əliyevin 16 aprel 1999-cu il tarixində Türkiyə prezidenti Süleyman Dəmirəl ilə görüşündə söylədiyi nitq bu baxımdan xarakterikdir: "Azərbaycan xarici siyasətində və ilk növbədə Qafqazda apardığı strateji kursunda böyük Atatürkün "Yurdda sülh, cahanda sülh" prinsipləri gerçəkləşdirilərək daim həyata keçirilir".

Heydər Əliyevin Ankarada Atatürk məqbərəsini ziyarət etdiyi zamanlarda, o cümlədən 1997-ci ildə "Nərgiz tv" televiziyasının təsis etdiyi "Dünyada ilin adamı" və 1999-cu ildə Atatürk Beynəlxalq Sülh Mükafatı kimi ali təltiflərin təqdimində etdiyi çıxış və kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrində Atatürkə olan sonsuz məhəbbətini bir daha diqqətə çatdırmış, aldığı mükafatın Atatürkün adını daşıdığı üçün indiyə qədər aldığı mükafatlardan üstün hesab etdiyini bəyan etmiş, Atatürk ideyalarının təkcə Türkiyə üçün deyil, həm də Azərbaycan üçün əhəmiyyətli olduğunu vurğulamışdır: "Böyük öndər Mustafa Kamal Atatürkün adını daşıyan mükafatı almaq mənim üçün böyük şərəfdir. Hesab edirəm bu mükafat mənim indiyə qədər aldığım mükafatlardan ən alisidir". Heydər Əliyevin Atatürk məqbərəsini ziyarət etdiyi zaman Azərbaycandan gətirdiyi torpağı Atatürk məzarının yanına qoymasını bir neçə baxımdan əlamətdar hesab etmək olar. Bu bir tərəfdən eyni millət anlamında Azərbaycan-Türkiyə qardaşlığını, digər tərəfdən Azərbaycan xalqının Atatürkə olan sevgisini, başqa bir tərəfdən isə Heydər Əliyevin sözləri ilə desək "Azərbaycanın Mustafa Kamal Atatürkü özünün öndəri, özünün qəhrəmanı, özünün müdrik şəxsiyyəti hesab etməsini" əks etdirir.



Heydər Əliyev Azərbaycanda Atatürkün adını daşıyan küçə və meydanlardan danışarkən onları iki baxımdan xarakterizə etmişdir. Heydər Əliyev Bakıda, Gəncədə, Naxçıvanda, Sumqayıtda Atatürkün şərəfinə adlandırılan küçə və prospektləri Azərbaycanda Atatürkün adının əbədiləşdirilməsi ilə yanaşı, geniş mənada Türkiyənin nümayişi baxımından da əhəmiyyətli hesab edir.

Heydər Əliyev Türkiyə və türk dünyası qarşısında xidmətlərinə görə Mustafa Kamal Atatürkü xalqı üçün, torpağı üçün müqəddəslər müqəddəsi hesab etmiş, onun ideyalarına, qoyub getdiyi dəyərli irsinə böyük hörmət və ehtiramını ifadə etmişdir. Heydər Əliyev Atatürkün demokratik dövlət quruculuğundakı xidmətlərini, xarici qüvvələrin təsiri ilə Türkiyəni parçalanmaqdan qurtarmasını, Türkiyəni yeni inkişaf yoluna çıxararaq dünyanın aparıcı dövlətləri sırasında yer almasına nail olmasını və s. təkcə Türkiyə xalqının və Türkiyə dövlətinin deyil, həm də türk dünyasının xoşbəxtliyi hesab edir, bir Azərbaycan türkü və bir Azərbaycan dövlətinin prezidenti olaraq bununla fəxr etdiyini açıq şəkildə bəyan edir: "Biz hamımız bununla fəxr edirik ki, belə bir Türkiyə var, Mustafa Kamal Atatürk Cümhuriyyəti var".

Hesab edirik ki, ümummilli Heydər Əliyevin bu müdrik kəlamları bu gün olduğu kimi gələcəkdə də aktuallığını itirməyəcək və hər bir azərbaycanlının dilində əhəmiyyətli ifadə kimi səslənəcəkdir: "Nə yaxşı ki, Türkiyə var, nə yaxşı ki, Mustafa Kamal Atatürk Cümhuriyyəti var..."

**Ədəbiyyat**

1. Heydər Əliyev Atatürk haqqında. Bakı: AzAtaM, 2003
2. Mahmud Kaşğarlı. Divani lüğət-it türk , I cild , Bakı , 2006
3. Mahirə Hüseynova . Missiya . Bakı : ADPU , 2019
4. Nizami Xudiyev . Uğurlu yolun layiqli davamçısı. Bakı : Nurlan , 2007
5. Nizami Hudiyev . Haydar Aliyev : devlet kuruculuğu ve dil politikası . Bakı: AzAtaM, 2005
6. Речь. Мустафа Кемал Ататюрк .Анкара : Бургаз , 2005

# THE POETIC STYLE OF YUNUS IMRA
# YUNUS İMRƏNİN POETİK ÜSLUBU

**ELMAN QULİYEV**

**Prof. Dr. Azərbaycan, Bakı, Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Türkoloji mərkəzin Türk ədəbiyyatı bölməsinin müdiri**
**Orcid: 0000-0001-5413-9479**

**Özet**

Yunus İmrə XIII-XIV əsrlər türk xalq dilini ilk dəfə şeir dilinə çevirən ,onu yüksək ədəbi dil halına gətirən türk dünyasının əvəzsiz şairidir.Yunus İmrə türk dilinin incəliklərindən istifadə etməklə şeirlərini daha çox heca vəzninin dördlük formasında yazmışdır.Bir irfan şairi olaraq o, türk dilini eşq və məna dilinə gətirə bilmişdir. Böyük türk araşdırmaçısı Mustafa Tatcı haqlı olaraq qeyd edirdi ki,"Yunus İmrə sokak Türkçesini semavileştiren kişidir.Onun izinden gidenler bu semavi dili kullandılar ve Türkçeyi arşa kanatlandırdılar". Məsələn ,

"Ben gelmedim tavi için ,benim işim sevi için,

Dostun evi gönüllerdir ,gönüller yapmağa geldim"-söyləyən Yunus İmrə irfani düşüncə olaraq kainatın tək insan və tək könül mövcudluğunda Allahın bulunma yollarına işarə edir.

Yunus İmrə xalq dili incəliklərindən məharətlə istifadə etdiyi üçün onun şeirlərində fərqli ahəng və məcaz sistemləri, sadə söz vasitəsi ilə təsirli məna ifadə bacarığı diqqəti cəlb edir.Yunus İmrə bu cür şeirləri ilə islami türk şeirində yeni milli nəzm şəkli formalaşdırmış , türk şeirində ortaq dilimizdən doğan yeni şeir üslubunu meydana gətirmişdir.Yunus İmrə öz şeirlərində din , fəlsəfə və təsəvvüfə aid terminləri xalqın daha asan dərk etdiyi türkləşmiş kəlmələr şəklində işlətməklə XIII-XIV əsrlər türk dilimizin lüğət tərkibini xeyli zənginləşdirmiş oldu.Məsələn , "könül" , "çələbi" ,"dava", "kitab","bəxt","taxt" və s. kimi sözlər.

Yunus İmrənin XIII-XIV əsrlər türk şeirinə gətirdiyi yeniliklərdən biri də yaratmış olduğu məcazlardır .Şair məcazlar vasitəsi ilə həm şeirlərdəki forma rəngarəngliyini təmin edir, həm də bu şeirlərin fəlsəfi yükünü artırır.Yunus İmrə şeirlərində dördlük bənd sisteminin çoxluğu onu Yusif Xas Hacibdən üzü bəri mani-tuyuğ türk milli şeir formaları ,o cümlədən klassika ilə bağlayır.Xalq şeiri üslubunda yazılmış bu şeirlər Yunus İmrəyə məxsus yeni poetik nümunələr kimi türk şeirimizin zənginləşməsinə xidmət göstərmişdir.

**Anahtar kelimeler :** Y.İmrə, eşq , dil, şeir, təsəvvuf

**Abstract**

Yunus Imra is the irreplaceable poet of the Turkic world who turned the Turkish vernacular language into poetry for the first time in the 13th-14th centuries and turned it into a highly literary language. Yunus Imra wrote his poems using the intricacies of the Turkish language mostly in the four-syllable form. As a gnostic poet, he was able to bring the Turkish language to the language of love and meaning. The great Turkish researcher Mustafa Tatci rightly noted that "Yunus Imra is a man who made street Turkish heavenly. Those who followed in his footsteps used this heavenly language and made Turkish a throne." For example.

“Ben gelmedim tavi için ,benim işim sevi için,

Dostun evi gönüllerdir ,gönüller yapmağa geldim” - Yunus Imra, who says, as a mystical thought, pointing to the ways of God's existence in the existence of a single person and a single heart in the universe.

Yunus Imra skilfully uses the intricacies of the folk language, that`s why his poems are characterized not only different systems of harmony, metaphor but also his ability to express meaning effectively through simple words. With such poems, Yunus Imra formed not only new form of national poetry in Islamic Turkish literature but also new poetry style in Common Turkish language. Yunus Imra greatly enriched the vocabulary of our Turkish language in the 13th-14th centuries by using the terms related to religion, philosophy and Sufism in his poems which were easier for the people to understand. For example, "heart", "chalabi", "dava", "book", "luck", "throne" and so on.

One of the innovations that Yunus Imra brought to the Turkish poetry of the 13th-14th centuries is the metaphors which he created. Through metaphors, the poet not only ensures the diversity of form in the poems, but also increases the philosophical burden of these poems. The multiplicity of four stanza system in Yunus Imra's poems connects it not only with the popular Turkish national poetry forms from since Yusıf Khas Hajib but also the classic forms of poetry. These poems written in the style of folk poetry served to enrich our Turkish poetry as new poetic examples of Yunus Emre.

**Key words** : Yunus Imra, love, language, poetry, mysticism

## 1.GİRİŞ

“İnsanlıq tarixinin ən gözəl dəyərlərindən biri kimi” (Mustafa Tatçı) tanınan Yunus İmrə ümumtürk ədəbiyyatı və mədəniyyətinin inkişafında mühüm rol oynamışdır. Təəssüflər olsun ki, onun həyatı (qismən də yaradıcılığı) dəqiq elmi faktlar əsasında deyil, daha çox ehtimal və rəvayətlərə istinadən öyrənilmişdir. Amma bu cür rəvayət və əfsanələrin özündə belə müəyyən həqiqət çalarlarını inkar etmək mümkün deyil.



Orta Asiyada Əhməd Yəsəvi ilə başlayan xalq təsəvvüf şeiri təxminən 150 il sonra Ön Asiyada Yunus İmrənin simasında təkcə davam etdirilməmiş, həm də yüksək zirvəyə çatdırılaraq ədəbi məktəb səviyyəsinə qaldırılmışdır. Əhməd Yəsəvinin Asiyanın şərqində türkcəni eşq və irfan dili halına gətirməsi sahəsində gördüyü işi Asiyanın qərbində ilk dəfə Yunus İmrə davam etdirmişdir. Y.İmrə yaradıcılığı əsas etibarı ilə türk milli şeir vəzni olan hecada (qismən də əruzda) yazılmışdır. Bu vəzndə o, daha çox dördlüklərdən istifadə etmişdir Yunus İmrənin ədəbiyyat aləminə heca və əruz vəznində yazılmış “Divan”ı, məsnəvi formasında yazılmış “Risalətün-Nushiyyə” (“Nəsihətnamə”) adlı didaktik əsəri məlumdur. Lakin digər bir məlumata görə Yunus İmrənin 2 min şeiri itmiş, bugünkü nəsillərə gəlib çatmamışdır.

Y.İmrə yaradıcılığında “Divan”a daxil olan nümunələr üstünlük təşkil edir. Qəzəl, məsnəvi, ilahi, nəfəs və s. şeir şəkillərinin yer aldığı Y.İmrə divanı heca və əruz vəznində yazılmışdır. “Fateh”, “Qaraman”, “Bursa” və s. nüsxələr Y.İmrə divanının ən qədim, nisbətən ən doğru nüsxəsi hesab edilir. Y.İmrə divanında bütün şeirlərin ona məxsusluğunu demək bir qədər çətindir. Y.İmrə adı və sənəti yaşadığı gündən son əsrlərə qədər o qədər məşhur və müqəddəs olmuşdur ki, həm İmrə təxəllüsü ilə (məs. Səid İmrə, Talibi İmrə), həm də təxəllüssüz Y.İmrə tərzində şeirlər yazılmışdır ki, sonrakı dövrlərdə bu nümunələr onun divanına daxil edilmişdir. N.S.Banarlının sözləri ilə desək: “Adı Yunus olmayanların da söylədikləri şeirlərə öz adlarını deyil, sevdikləri və inandıqları bu ən böyük sufi şairin adını verdikləri mümkündür”.

Yunus İmrənin “əslim Haqdır şək deyil, nam oldu insan mənə” deməsi təsadüfi xarakter daşımır. “Əslim Haqdır” deyən Yunus İmrə varlıq, insan və könül – ruh mövcudluğunda özünün irfani missiyasını təqdim edir. Bu cür təqdimatda biz Allahı qəlbinə hakim etmiş şairin ruhi-mənəvi məramı ilə yaxından tanış olmuşuq:

*Mən gəlmədim dava üçün,*

*Mənim işim sevda üçün,*

*Dostun evi könüllərdir,*

*Könüllər yapmağa gəldim.*

Ona görə də Yunus İmrənin şeirləri insanları Allaha doğru qanadlandıraraq könüllərində zərrənin (insan) bütövə (Allah) “birləşmək” ümidlərini artırır.

Y.İmrə vəhdəti-vücud fəlsəfəsinə uyğun olaraq zahiri (mədrəsə) və batini (irfan, həqiqət) elmlər sırasında ikincinin Allahı dərk etmək yolunda vacibliyini daha çox önə çəkir:

*Elm eli bilməkdir,*

*Özünü dərk etməkdir.*

*Sən özünü bilməsən,*

*Elm nəyə gərəkdir.*

Göründüyü kimi, sufi sənətkar “könül gözünün açılmasını aşiq, məşuq” halında axtarmaqda olduqca haqlıdır. Y.İmrənin eşqi məcazi (insana) deyil, həqiqi (Allaha) eşqdir. Y.İmrə Tanrı eşqi ilə nəfəs almayan könlü viranəyə bənzədir. “Bir mən vardır məndə məndən içəri” deyən Y.İmrənin aşiqliyinin səbəbləri və eşqə mübtəla “mən”inin Tanrıya doğru uzanan yolda son məqama yetişmək arzuları bəlli olur:



*Eşqin aldı məndən məni,*

*Mənə səni gərək, səni.*

*Mən yanaram dünən, bu gün,*

*Mənə səni gərək, səni.*

Y.İmrə fəlsəfəsinə görə eşqin tarixi insanlığın tarixi qədər qədim və əzəlidir. O, kainatda bütün yaradanların mayasında eşq adlı cövhərin mövcudluğunu qəbul edir. “Əvvəl yer-göy yox idi, var idi eşq bünyadi” deməsi də bu hikmətin təsdiqinə xidmət edir. Y.İmrə daha irəli gedərək eşqin dini-fəlsəfi mahiyyətini ilahi-müqəddəslik çərçivəsində təqdim edir və bununla da “eşq gəlincə cümlə əskiklər bitər” irfani yanaşması daxilində eşqin zatı və mahiyyətini açıqlaya bilir:

*Eşq anadan doğmadı, kimsəyə qul olmadı,*

*Hökmülə əsir qılır cümlə-bilişi-yadı.*

Qeyd edək ki, Y.İmrə yaradıcılığında eşqin fərqlərindən danışıldığı kimi, ötəri də olsa, eşqsiz insanlara da münasibət bildirilmiş, eşqsiz insanlara qara daş, heyvan tipində dəyər verilmişdir:

*Eşqsizlərə mənim sözüm bənzər qaya yankısına*

*Bir zərrə eşqi olmayan belli bilin, yabandadır.*

*Eşqsizlərə verma öyüd, öyüdündən alan deyil,*

*Eşqsiz adam heyvan olur heyvan öyüd alan deyil.*

**2.YÖNTEM**

Y.İmrə şeirlərində insana olan sevgi və məhəbbətin əsasında insanın Allahın bir parçası olması ideyası dayanır. Y.İmrəyə görə məhəbbət qəlb, eşq isə ruh üçündür. Bu mənada onun "din tamam olacaq doğar məhəbbət" söyləməsi təsadüfi deyildir. Bu səbəbdən Y.İmrə düşüncələrində məhəbbət eşqin başlanğıcı rolunda çıxış edir. Yəni böyük Şəhriyarımızın sözləri ilə desək "məhəbbət risalət vədəsinə" qədəm qoyur. Buna görə də Allaha üz tutub "varlığım səndədir" deyən şair haqqa tapınan hər bir insana dərviş sevgilərini ifadə edir. Şairin həqiqi aşiqliyi bütün məqamlarda ruhuna hakimdir, etdiklərinin kortəbii deyil, şüurlu olduğunu təsdiqləyir:

*Mənəm o eşq bəhrisi dənizlər heyran mənə,*

*Dərya mənim qətrəmdir, zərrələr ümman mənə*

*Çün dosta gedər yolum mülki-əzəldir elim*

*Haqdan söylər bu dilim eşq oldu seyran mənə.*

Y.İmrə yaşadığımız həyatda insanı "qərib", "vətənsiz" hesab edir. Hər bir insanın öz vətəninə "Allah diyarı"na getmək istəyini ali məqsəd kimi poetik formada belə səciyyələndirir:



*Bu dünyaya gələn kişi axır yenə getsə gərək,*

*Müsafirdir, vətəninə bir gün səfər etsə gərək.*

*Vədə quldur, ol dost ilə bir bu cahanə gəlmədik,*

*Bəs nə qədər əylənərik, ol vədəmiz yetsə gərək.*

Y.İmrə düşünən insanın fikirlərində Allaha çatmağın yollarını əks etdirir. Burada sevgi, istək o qədər güclüdür ki, insan sevginin yaratdığı "çəkisizliyə" düşür, bəzən özünü unudaraq dünyadan köçmək vədəsini də gözləyə bilməyib şikayətçiyə çevrilir. Çünki Y.İmrənin təqdim etdiyi aşiq tək insan və tək bir könül düşüncəsində Haqq ilə Haqq olmaq iddiasındadır. Bu düşüncə onu tərki dünyalığa yox, eşqin ünvanı olan azadlıq məqamına - Haqqa doğru aparır:

*Eşqin zemzemesindən aşiq boynu zəncirli,*

*Azadlıq istəməzlər belə qaldılar dustaq.*

*Mən bu yurdlu deyiləm, burda durub nə edirəm*

*Neçə-neçə tutsaklı tuzak üzdüm gedirəm.*

Y.İmrə bu dünyanı haqdan qopub haqqa qayıdan insanın “keçid mərhələsi” hesab edir. Allahdan şüur payı alan insanın bu mərhələdə ibadəti ona verilən mükafatın şükrü kimi qiymətləndirilir. Allah-islam inamının insanda ibadətə meyl yaratdığı üçün Y.İmrə hamını bu yola dəvət edir.

Y.İmrə vəhdəti-vücud nəzəriyyəsinin tələblərinə uyğun olaraq insanın öz şüuruna hakim olduğu “keçid mərhələsi”ndə nəfsə uymasını Allah eşqinə mane olan qorxunc hal hesab edir. Çünki “nəfs maddədir, maddəyə bağlanışdır, maddə eşqi, maddə ehtirasıdır” (N.S.Banarlı). Məhəmməd peyğəmbərin hədislərinin birində ifadə olunan “kənardakı düşmənlə savaşıb onu məğlub etməyimiz bizim kiçik savaşımızdır. Fəqət nəfsimizlə savaşıb onu məğlub etməyimiz bizim böyük cihadımızdır” – fikirlərində nəfsi məğlub etmənin əhəmiyyət dərəcəsi müəyyənləşdirilir. Burada təkcə maddi nemətlərdən yox, həm də çox yaşamaq iddialarından da imtina edilir. Əsl həyata can atan Y.İmrə ölümü həm imtahan, həm də bayram hesab edir.

*Bu dünyaya qalmayaq gəl,*

*Fanidir, aldanmayaq gəl*

*Bir ikən ayrılmayaq gəl*

*Gəl dosta gedək, gəl, könül!*

*Gəl bu cahandan biz köçək,*

*O dostun elinə uçaq.*

*Bütün arzulardan keçək*

*Gəl dosta gedək, gəl, könül!*



**3.BULGULAR**

Yunis İmrədə dərvişlik məqamı xüsusi mərhələ təşkil edir. Y.İmrə dərvişliyi ilkin məna anlamında (farsca, dər -qapı, viz - gəzən) deyil, doğruluq, yaxşılıq, həqiqi eşq və s. irfani anlamında götürərək Haqq yolçusu məqamında təqdim edir. Yunis İmrə dərvişliyi haqq axtaran və haqqı təbliğ edən səyyaha bənzədir. Y.İmrə vəhdətə, Haqqa qovuşmağı, dərvişlik üçün son mənzil hesab edir. Buna görə də o, şəriət, təriqət, mərifət və həqiqət mərhələlərindən keçməyi dərvişliyin vacib şərti sayır. Y.İmrə Əhməd Yəsəvi və Hacı Bektaşi təlimlərinə uyğun olaraq şəriət, təriqət, mərifət və həqiqət mərhələlərinin hər birinə aid olan 10 şərti dərvişliyin əsas əməlləri sırasına daxil edir. Eşq yolunun məlamət əhli (qarşısına qoyduğu məqsədə çatmaq üçün heç nədən çəkinməyən) olan dərvişin son dayanacağı Vüslətdir. Y.İmrə dərvişi duyuş, düşünüş və inanış mərhələlərindən keçirməklə bu yolçuluğun şərəfli olduğu qədər, çətin olduğunu da dilə gətirir. Ümumilikdə 40 vacib şərti icra etməyin çətinliyini və nəfsə qalib gəlməyin asan olmadığını bəyan edən şair eşq və sətri dərvişliyin vacib amilləri sırasında önə çəkir:

*Mən dərvişəm deyən insan iş bu yolda ar gərəkməz,*

*Dərviş olan insanların könlü gendir, dar gərəkməz.*

*Dərviş könülsüz gərəkdir, söyənə dilsiz gərəkdir.*

*Döyənə əlsiz gərəkdir, xalqa bərabər gərəkməz.*

Y.İmrə haqqı təbliğ edən, üzünü Allah dərgahına tutan dəvişlərin pak və dürüst olmalarını, daim gümüşlənmə (təmizlənmə) prosesində olmalarını da gərəkli hesab edir:

*Hər kimə kim dərvişlik bağışlana*

*Qəlbi gedə pak ola gümüşlənə*

*Nəfəsindən müşki-ənbər yayıla*

*Budağından ilü şar yemişlənə*

*Aşiqin göz yaşı həm göl olar*

*Ayağında saz bitib qamışlana.*

Y.İmrə bir irfan sahibi olaraq peyğəmbərə, övliyalara müqəddəs şəxslərə Allahın nuru kimi baxmış, xüsusilə Məhəmməd peyğəmbərə ithaf olunan şeirlərdə onu "haqq peyğəmbəri", "mələklər mülkünün sultanı", "tanrı elçisi", "nur mənbəyi" və s. şəkildə mədh etmişdir:

*Sən haqq peyğəmbərsən şəksiz, gümansız,*

*Sənə uymayanlar gedər imansız.*

*Aşıq Yunus neylər dünyanı sənsiz,*

*Adı gözəl, özü gözəl Məhəmməd.*



Həzrəti Məhəmmədə şairin məhəbbəti o qədər güclüdür ki, Allah rəsulunu görmək, ona qovuşmaq istəyi, həsrət yanğısı şəklində ifadə olunur və ruhən Məhəmməd peyğəmbər hüzurunda dayanan şairin sufuyanə diləkləri belə açıqlanır:

*Arayıb, axtarıb tapam izini,*

*İzinin tozuna sürtəm üzümü,*

*Haqq nəsib eyləsə görəm üzünü,*

*Ya Məhəmməd, könül arzular səni,*

– deyərək öz "mən"inin intəhasızlıqlarından bəhs açan Y.İmrə bu "mən"in mütəsəvvif-ruhi, hissi cəhətləri ilə yanaşı, onun arxasında dayanan həqiqi qürur və təəssübkeşlik amillərinə də yer verir.

Y.İmrə insan qəlbinə hakim kəsilən ilahi eşqi Allah ilə insan arasında rabitə hesab edir. Y.İmrəyə görə hökmləri yerinə yetirmədən (şəriət), onları düşünüş və inanış sistemində dərk etmədən (təriqət) və islami sirləri dərindən anlayıb əməldə təcəssüm etdirmədən (mərifət) həqiqətə qovuşmaq (Allaha çatmaq) qeyri-mümkündür. Y.İmrə insana adi məxluq kimi baxmır. Onun nəzərində insan Allahdan qopan nur və qüdrət parçasıdır. Qurani-Kərimin "Nur" surəsində yazılmışdır: "Allah gözlərin və yerin nurudur. Allah nur üstündə nurdur. Allah dilədiyini nura qovuşdurur." Y.İmrə Quran məntiqinin davamı olaraq bütün mərhələlərdə (şəriət, təriqət, mərifət) idrakın Allaha qovuşmaq yolundakı əhəmiyyətini xüsusi vurğulayır.

Y.İmrə insanın yaranışı müqabilində şükr etməsini (ibadəti) Allaha qovuşmağın vacib şərtlərindən biri kimi dəyərləndirir:

*Nəyi sevər isən, imanın oldur,*

*Necə sevməyəsən, sultanın oldur.*

## 4. SONUÇ , TARTIŞMA VE ÖNERİLER

Özünü "fənaya", nəfsini Haqqa təslim edən Y.İmrənin irfani görüşləri ilə özündən əvvəlki və zamanındakı türk-sufi təriqətləri arasındakı təsir və bağlılığı inkar etmək mümkün deyildir. Bu sırada Ə.Yəsəvi və Y.İmrə təsəvvüf görüşlərindəki oxşarlığı xüsusi qeyd etmək lazımdır. Ə.Yəsəvinin Türküstanda əsasını qoyduğu "Yəsəvilik" təriqəti Türküstan sərhədlərini aşaraq, Şərq-islam dünyasının əksər mərkəzlərində yaranan Babai, Bəktaşi, Nəqşbəndi, Heydərilik və s. təriqətlərin yaranmasına təsir göstərmişdir. Bu mənada, Ə.Yəsəvi təsiri həmin təriqətlərin nümayəndələri olan ayrı-ayrı şəxslərin dünyagörüşlərinin formalaşmasından və yaradıcılıqlarından yan keçməmişdir. Ə.Yəsəvi ilə Şərq sufi ədəbiyyatının sonrakı dövrlərinin görkəmli nümayəndələri C.Rumi, Y.İmrə, S.Vələd, S.Təbrizi və s. arasında olan əlaqə və bağlılığın əsas səbəbini də məhz bunda axtarmaq lazımdır. Bu təsir və əlaqə əsasən onların yaradıcılıqlarının ideya-məzmununda özünü nümayiş etdirmişdir. Belə ki, C.Ruminin "Məsnəvi", Y.İmrənin "Risalətün-nüshiyyə", S.Vələdin "Maarif" və s. əsərlərində Ə.Yəsəvi ilə başlanan sufi dəyərlər bu və ya digər formada əksini tapmış, orta əsrlər türk-islam fəlsəfi fikrinin inkişafında örnək rolunu oynamışdır. Diqqət etdikdə görürük ki, klassik Şərq ədəbiyyatında dünya sirlərinin "Allah sirri və möcüzəsi" şəklində dəyərləndirilməsinin mükəmməl ifadə və deyim tərzi Əhməd Yəsəvi ilə başlayır. Bu baxımdan Allahın yaratdıqlarının ən şərəflisi, haqq yolçusu olan insana münasibətdə Yunis İmrə də Ə.Yəsəvi kimi onu bir canlı varlıq şəklində təqdim etmir, insanı ruh, nur daşıyıcısı hesab edir



Ə.Yəsəvidə olduğu kimi Y.İmrədə də tanrı sevgisi, ilahi eşq aparıcıdır. "Yəsəvilik"də "vəhdəti-vücud" fəlsəfəsinə uyğun zərrənin (insanın) bütövə (Allaha) qovuşmaq arzusu Yunis İmrə poeziyasında da özünü göstərir və ilahi eşq dərinliyində özünəməxsus ifadəsini tapa bilir. Hər iki irfan sahibi Allahı dərk etməyi "könül" və duyğu "bilimində" mümkün sayır. Ona görə də Allaha, peyğəmbərə, müqəddəs əshabələrə, ibadətə, mövcudiyyata sevgi bildirmək, şükürlər etmək, maddiyyatdan, nəfs qulu olmaqdan, "kənar sevgilərdən" və s. uzaqlaşmaq kimi irfani görüşlər Ə.Yəsəvi ilə Y.İmrəni eyni bir "nur körpüsündən" keçirib Tanrı dərgahına aparır. Biz hər iki sufinin timsalında "Allahdan aşiqlik diləyən", "eşq odunda yanan", "dünyanı haram sayan", "eşq dərdlərinə dava olmayan" Rəbbin sadiq bəndələrini görür, onların Allah dərgahına "çağırışlarını" eşidirik. Məsələn, Yunis İmrənin

*Eşq məqamı alidir, eşq qədim, əzəlidir.*

*Eşq sözünü söyləyən qüdrət dilidir.*

*Deyən ol, eşidən ol, görən ol, göstərən ol*

*Hər sözü söyləyən ol, surət can mənzilidir.*

misralarında ifadə olunan məna Ə.Yəsəvinin

*Eşq məqamı türlü məkan, ağlın yetməz*
*Başdan-başa zorluk, cəfa, möhnəti getməz*
*Məlamətlər, ihanətlər kilsa, geçməz*
*La-məkanda haqdan dərslər aldım iştə.*

fikirləri ilə üst-üstə düşür.

Hər iki təsəvvüf şairinə görə içində ruh daşıyan, qəlbi Allah nuru ilə dolu olan insan yaxşı əməl sahibi olmalıdır ki, Allah mərhəminə tuş gəlsin, əbədi aləmin layiqli sakininə çevrilsin:

*Eşq bağını möhnət ilə göyərtməsən,*
*Hor görülür şom nəfsini öldürməsən,*
*"Allah" deyib içinə nur doldurmasan,*
*Vallah, billah səndə eşqin nişanı yox (Ə.Yəsəvi).*

*Nəfs arzusundan keçib, eşq qədəhindən içib*
*Dost yoluna ər kimi durmayan aşiqmidir (Y.İmrə).*



Ə.Yəsəvi bu fikrin davamı kimi mərhəmət və rəhmliyi "Allah deyib içinə nur doldurmağın" əsas şərtlərindən hesab edir. Çünki insan mərhəmətli və rəhmli olan Allahın "əməl daşıyıcısı" olduğu təqdirdə özündə mərhəmət hissini yaşada bilir və bu halda insan Allah dərgahının "məhrəm" bəndəsinə çevirilir. Davud peyğəmbərin "Allahım, insanları niyə yaratdın?" sualına Cənab Haqqın "Mən gizli dəfinə idim, bilinməyi sevdim, bilinmək üçün insanları yaratdım" cavabı ilə əslində Allahın insana verdiyi missiyanın mahiyyəti açılır. Hədislərin birində deyildiyi kimi "Allahın insanı öz rəhman surətində yaratması" onun pisliklərdən uzaqlaşması və xeyirxahlığı üçün zəmin yaradır. Bu mənada həm Ə.Yəsəvi, həm də Y.İmrənin eyni mövqedə dayandığının şahidi oluruq. Əhməd Yəsəvi də Y.İmrə kimi Allaha qovuşma yolunda insan idrakının əhəmiyyətini yüksək qiymətləndirir, məhz insanın idrak vasitəsilə hər şeyi anlayıb, onu tətbiq yolu ilə insanlığını təmin etməsini xüsusi vurğulayır:

*Harda görsən könlü qırıq, mərhəm ol sən,*
*Öylə məzlum yolda qalsa, həmdəm ol sən*
*Məhşər günü dərgahına məhrəm ol sən*
*Mən-sən deyən kimsələrdən keçdim iştə.(Ə.Yəsəvi)*

*Həqiqət sirri-əsrarın cahanda əhli-hal anlar,*
*Avam olan nə bilsin, hali-eşqi həp günah anlar.(Ə.Yəsəvi)*

Əhməd Yəsəvinin "Divani-hikmət" əsəri kimi Y.İmrənin "Risalətün-nüshiyyə"si də bir əxlaq kitabı olmaqla yanaşı, həm də din ilə təsəvvüfün vəhdətidir. Ona görə də əsərlərdəki şeir parçalarında Quran hikmətlərinin sadəcə sadalanması yox, həm də bir növ bunlara sufi yanaşma vardır. Məsələn, bu cəhətin Ə.Yəsəvi sənətində əksi belədir:

*Bismillahla başlayaraq hikmət söyləyip*

*Taliblərə inci, cövhər saçdım iştə*

*Riyazəti qatı çəkip, kanlar yutub*

*Mən dəftəri-sani sözün açdım iştə. (Ə.Yəsəvi)*

"Divani-hikmət" başdan-ayağa insanın Allaha olan məhəbbətini ön plana çıxarır. Ona görə də Ə.Yəsəvi öz hikmət xəzinəsində insanın yeri, rolu, vəzifələrindən bəhs açmaqla onu daimi ibadətə səsləyir. Maraqlıdır ki, Ə.Yəsəvi ibadəti yalnız namaz qılmaq və dua etməkdən ibarət hesab etmir. O, riyakarlığı insanlığa xas olmayan hal kimi dəyərləndirir. Oruc tutmağı, namaz qılmağı öz pis əməllərinə pərdə edənləri imandan uzaq sayır. "Yəsəvilik" təriqəti İslam dininin qanunları əsasında formalaşdığından Ə.Yəsəvi bu baxışlarında öz qənaətlərini dini hökmlərə uyğunlaşdırır və hamı üçün vacib məqamları diqqətə çatdırır:

*Oruc tutup halka riya kılanları,*

*Namaz kılıp tesbih ele alanları,*

*Şeyhim diyip başka bina kuranları*

*Son deminde imanından cüda kıldım.*



Şairə görə, insan həm də əməli, düşüncəsi ilə ibadət edir. Ə.Yəsəvi belə hesab edir ki, yalnız bu yolu seçənlərin ibadəti tamdır. İnsan ona verilən ömür vaxtını düzgün xərcləməlidir. Əgər o, könlünü Allaha təslim edirsə, onun yolunda "can verməyə" hazırsa, əsl aşiqə çevrilir, axirətini qazanır:

*Aşiq deyil sevdiginə can verməsə*

*Köylü degil çapa yapıp nan verməsi*

*Burada ağlayıp axirətdə can verməsə*

*Yolda qalır, Xuda lütfünü alanı yox.*

və yaxud

*Ey xəbərsiz, eşq əhlindən bəyan sorma,*

*Dərd isə sən, eşq dərdinə dərman sorma,*

*Aşiq olsan, zahidlərdən nişan sorma*

*Bu yollarda aşiq ölsə, günahı yox.*

Bu halı biz eyni ilə Y.İmrənin yaradıcılığında da görə bilirik. Y.İmrədə də problemə bu cür yanaşma bir daha onu təsdiqləyir ki, Ə.Yəsəvi yaradıcılığında özünü göstərən sufi ideyalar özündən sonrakı ədəbiyyata, ədəbi düşüncəyə təsirsiz ötüşməmiş və bu, ədəbiyyatda ənənə rolunu oynaya bilmişdir.

*Canını eşq yoluna verməyən aşiqmidir?!*

*Cəhd eyləyib ol dosta irməyən aşiqmidir?!(Y.İmrə)*

Ə.Yəsəvinin hikmətlərdən ibarət olan məşhur əsərində bütün məsələlərə islami təfəkkür yanaşmasında münasibət var. Allah, peyğəmbər, şəriət qaydaları, ibadət yolları və s. barədə yazılanların qaynağında, heç şübhəsiz, müqəddəs Quran ideyaları dayanır:

*Mənim hikmətlərim fərmani-Sübhan*

*Oxuyub anlasan, mənayi-Quran.*

Diqqət etdikdə bu ideya və fikirlərin Y.İmrə yaradıcılığında olduqca sadə və təsirli formada davamına rast gəlmək mümkündür.

*Şəriət əhli iraq erеməz bu mənzilə*

*Əslim Haqdır, şəkk deyil mürşiddir Quran mənə*



Göründüyü kimi, Y.İmrə "əslim Haqqdır, şəkk deyil" deməklə şəriət, təriqət, mərifət mərhələlərini keçməklə həqiqət məqamına yetişdiyini bəyan etmiş və bu yolda Quranın vəsilə olduğunu açıq şəkildə bəyan etmişdir. Əslini Haqq (Allah), Quran rəhbər hesab edən Y.İmrənin yaradıcılığında irfanın insanlıq tarixinin gözəl dəyəri kimi yer almasının ənənə bağlılığını inkar etmək mümkün deyil:

*Həqiqət bir dənizdir, şəriət onun gəmisi*

*Çoqlar gəmidən cıqub dənizə talmadılar. (Y.İmrə)*

Bütün bunlar onu göstərir ki, Y.İmrə türk təsəvvüf ədəbiyyatının görkəmli nümayəndəsi kimi təkcə türk dünyasının deyil, bütün müsəlman şərqinin zəngin ənənələri zəminində özünəməxsus yaradıcılıq formalaşdırmış, özündən sonrakı ədəbiyyatın inkişafında mühüm rol oynamışdır.

## 5. KAYNAKLAR

1.Ahmet Atilla Şentürk,Ahmet Kartal.Eski türk edebiyatı tarihi,Dergah yayınları,2008.

2. Yunis Əmrə. Risalətün-nushiyyə.Bakı,2013

3. Yunis Əmrə.Güldəstə .Bakı,1992

4.Mustafa Tatcı.Yunus Emre yorumları,Ekim ,2015

5.Nihad Sami Banarlı.Türk ədəbiyyatı tarixi,2 cilddə, 1-ci cild,İstanbul,1998

6.Quliyev Elman.Türk xalqları ədəbiyyatı,Bakı,2017

# STUDY OF NATIONAL CHARACTERISTICS OF KHAGHANI CREATIVITY
# XAQANİ YARADICILIĞININ MİLLİ XÜSUSİYYƏTLƏRİNİN TƏDQİQİ

**ÜLKER BAHŞİYEVA**

**Dr. ADPU-nun Filoloji Fakültesinin, Edebiyatın Tedrisi Teknolojisi Bölümünün Baş Öğretim Üyesi**

**ORCID İD 0000-0002-5994-2356**

**Özet**

M. İbrahimov Xaqani yaradıcılığını dəyərləndirərkən onun sənətinin milli xüsusiyyətlərini də diqqətdən kənarda saxlamamışdır. Akademik M.İbrahimov Xaqaninin bütün irsinin fars dilində yazılmasına baxmayaraq, şairin düşüncə və idrak sistemində özünü mühafizə edən milliliyin mövcudluğundan söz açır. Alimə görə Xaqani Azərbaycan ruhu, Azərbaycan zövqü, Azərbaycan bədii təfəkküründən və həyatından qidalanmışdır. Bu səbəbdəndir ki, onun əsərlərində çoxlu Azərbaycan məsəlləri, obrazlı ifadələri və sözləri də işlənmişdir.

**Anahtar kelimeler:** M.İbrahimov, Xaqani Şirvani, klassik ədəbiyyat, şeir.

**Summary**

While evaluating Khagani's creativity, M.Ibrahimov did not ignore the national features of his art. Academician M.Ibrahimov speaks of the existence of self-protecting nationality in the poet's thought and cognitive system, despite the fact that Khagani's entire legacy is written in Persian. According to the scientist, Khagani was nourished by the Azerbaijani spirit, Azerbaijani taste, Azerbaijani artistic thinking and life. For this reason, many Azerbaijani proverbs, figurative expressions and words are used in his works.

**Keywords:** M. Ibrahimov, Khagani Shirvani, classical literature, poetry.



## GİRİŞ

Mirzə İbrahimovun elmi-tədqiqat xarakterli yaradıcılığında klassik irsin öyrənilməsi, onun ənənələri və estetik prinsiplərinin araşdırılması əhəmiyyətli yer tutur. Nizami, Nəsimi, Füzuli, Vaqif, Heyran xanım, Q.Zakir, A.Bakıxanov, M.F.Axundov, C.Məmmədquluzadə, N.Vəzirov, Ə.Haqverdiyev və s. kimi böyük sənətkarları təhlilə cəlb edərkən M.İbrahimov bir tərəfdən Azərbaycan xalqının çoxəsrlik ədəbi-bədii ruhunun rəngarəngliyini, digər tərəfdən hər bir sənətkarın fərdi yaradıcılıq keyfiyyətlərini üzə çıxarmışdır. Bu cür araşdırmaları ilə akademik M.İbrahimov ayrı-ayrı sənətkarların simasında formalaşan ədəbi-bədii ənənənin güclü olduğunu sübut etmiş, hər hansı yeni mərhələdə ənənənin müsbət nəticələrinin nədən ibarət olduğunu açıqlamağa çalışmışdır. Akademik M.İbrahimov 1959-cu ildə yazmış olduğu "Ənənəyə həssas münasibət" məqaləsində bu barədə belə deyir: "Azərbaycan xalqı uzun əsrlik həyatının və tarixinin xüsusiyyətlərini, mübarizəsini, ruhunu, zövqünü, arzu və istəklərini ifadə edən və özünəməxsus yaradıcılıq siması, yaradıcılıq yolu olan kamil bir poetik məktəb yaratmışdır ki, onun ənənələri, estetik prinsipləri çox güclüdür... Hər hansı ənənə, hər hansı təcrübə yalnız istifadə olunduğu zaman, həm də düzgün istifadə olunduğu zaman müsbət nəticə verir, xalqın irəliləməsinə kömək edir" (1, 507).

M.İbrahimovun elmi araşdırmalarında XII əsr klassik Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Xaqaninin tədqiqi xüsusi yer tutur. O, klassik ədəbiyyata həsr etdiyi bir sıra

məqalələrində Xaqani yaradıcılığına diqqət ayırsa da, 1980-ci ildə yazmış olduğu "Xaqaninin həyatı və estetik idealı" və 1982-ci ildə qələmə aldığı "Nizami və Xaqani yaradıcılığının tədqiqinin bəzi məsələləri" adlı araşdırmalarında konkret olaraq Xaqaninin həyat və yaradıcılığı üçün xarakterik olan bir sıra məsələləri təhlil etmiş, bəzi mübahisəli məqamlara aydınlıq gətirmişdir.

M.İbrahimov Xaqanini ilk növbədə Azərbaycan ədəbiyyatının böyük klassiki və bəşəriyyətin bədii fikir tarixində əbədi ad qazanan şairi hesab edir. Bir tərəfi milli, digər tərəfi bəşəri dəyərlərə hesablanan bu fikri ilə M.İbrahimov Xaqaninin ədəbi qüdrətinin masştabını üzə çıxarır, qüdrətli söz sahibinin ədəbiyyat tarixlərində birincilər cərgəsində dayanmasının bu amal ilə möhkəm bağlandığını diqqətə çatdırır. Alim öz tədqiqlərində Xaqaninin həyatı, dövrü, mühiti və yaradıcılıq keyfiyyətləri haqqında söz açsa da, bu yaradıcılığın estetik xüsusiyyətlərinə daha çox yer vermiş, şairin parlaq dühasının məhsulu olan poeziyasını "dərin psixoloji incəliklər", "realist lövhələr", "renessans ruhlu xüsusiyyətlər" və s. baxımdan araşdırmağa təşəbbüs göstərmişdir. M.İbrahimovun Xaqani kimi dahi sənətkarın yaradıcılığına bu tələblər daxilində yanaşması səbəbindəndir ki, onun poetik qüdrəti ideya-estetik baxımından düzgün qiymətini ala bilmişdir. M.İbrahimov özünəqədərki tədqiqlərdə Xaqani ilə bağlı yanlışlıqlara diqqəti çəkməklə ona məddah şair damğası vuranlarla barışmadığını bildirir. Tədqiqatçı-alim haqlı olaraq Xaqanini məddah şair deyil, "şərq poetik təfəkküründə tamamilə yeni mərhələ olan novator ruhlu" və "dərin fəlsəfi mahiyyəti" ilə seçilən poeziyanın yaradıcısı hesab edir. Xaqanini zəmanəsinin övladı və onun bütün həyatını yaradıcılığını dövrü ilə bağlı hesab edən M.İbrahimovun aşağıdakı fikirləri də şairin yaradıcılığını xarakterizə etməkdən ötrü əhəmiyyətlidir: "O, zəmanəsinin kasıbı yox, yaşayan, mübarizə aparan, onu təhlil və tənqid edən böyük şairi, işıqlı filosofu idi" (2, 69).

M.İbrahimov Xaqani poeziyasının fəlsəfi aspektini onun dərin humanizmində, xalq həyatı ilə bağlılığında, xalq ruhunu əks etdirən demokratizmdə, insan səadəti, insan azadlığı ilə bağlı, o cümlədən təbiət və cəmiyyət hadisələrinə aid düşüncələrində axtarır, təhlil prosesində fikirlərini əsaslandıra bilir. Məsələn, Xaqani yaradıcılığına xas olan insan səadəti və mənəvi rəzalət problemlərindən danışarkən M.İbrahimov hər iki halın insan cəmiyyətinə xas olduğunu bildirir, birinin düz, digərinin naqis xüsusiyyətlərini nümunələr əsasında diqqətə çatdırır. Tədqiqatçı haqlı olaraq bu prosesdə Xaqani yaradıcılığının böyüklüyünü insana olan inamla hər cür pisliklərin, rəzalətin səbəblərinin açıqlanması ilə bağlayır. M.İbrahimov bir çox bədii nümunələrə istinad etməklə insan və cəmiyyət münasibətlərinin Xaqaniyə məxsus modelini üzə çıxarır. Şairin ictimai münasibətlər zəminində insanın naqisliyini anadangəlmə deyil, həyat şəraiti və bu şəraitə rəvac verən ictimai quruluşla bağlamasını düzgün sayır: "Xaqani poeziyasında o zamankı həyat, cəmiyyətin mənəvi, fəlsəfi aləmi, şairin mübarizələrlə bağlı olan şəxsi hissləri dərindən əks olunmuş, demək olar ki, bütün təfərrüatı ilə öz geniş obrazlı ifadəsini tapmışdır" (2, 65).



M.İbrahimov Xaqani yaradıcılığını dəyərləndirərkən onun sənətinin milli xüsusiyyətlərini də diqqətdən kənarda saxlamamışdır. Akademik M.İbrahimov Xaqaninin bütün irsinin fars dilində yazılmasına baxmayaraq, şairin düşüncə və idrak sistemində özünü mühafizə edən milliliyin mövcudluğundan söz açır. Bunları bilavasitə təsvir və obrazlar silsiləsi ilə əlaqələndirən tədqiqatçı həmin silsilədəki milliliyi aşağıdakı şəkildə dəyərləndirir: "Bunlar Azərbaycan ruhu, Azərbaycan zövqü, Azərbaycan bədii təfəkküründən və həyatından qidalanmışdır. Əsərlərində çoxlu Azərbaycan məsəlləri, obrazlı ifadələri və sözləri də işlənir ki, bu da az əhəmiyyətli deyildir" (2, 69).

Xaqani poeziyasında obrazlı ifadənin, bədii ümumiləşdirmənin genişliyini diqqətə çatdıran tədqiqatçı bu yolla onun poetik qüdrətinin böyüklüyünün vacib tərəflərini açıqlaya

bilir. Onun sənətindəki realist boyaların əlvanlığını, xalq təfəkkürü və xalq ədəbiyyatından gələn ifadə çeşidliyini və s. bu sənətin aparıcı tərəfi kimi şərh edir. Tədqiqatçı alim göstərir ki, Xaqani insanların psixologiyasını, əxlaq dəyərlərini, ictimai və siyasi görüşlərini təsvir edərkən daha çox inandırıcılıq faktoruna riayət edir. Şair sözü elə seçir və işlədir ki, oxucu həm fakta, hadisəyə, həm də ifadə tərzinə məftun olur.

M.İbrahimov araşdırmalarında Xaqani yaradıcılığının elmi-fəlsəfi cəhətinə diqqətlə yanaşır. Bu halda Xaqani sənətinin elmi təfəkkür amili daha çox təhlil obyekti kimi seçilir. M.İbrahimov Xaqanidə müşahidə etdiyi elmi-fəlsəfi cəhəti bilavasitə şairin Şərq və Qərb elmlərinə dərindən bələdçiliyi ilə bağlayır. Xüsusilə Xaqaninin yunan fəlsəfəsinə bələdçiliyi ilə bağlı M.İbrahimovun söylədiyi fikirlər diqqətdən yayınmır. Akademik M.İbrahimov Xaqaninin yunan fəlsəfəsinə tənqidi münasibətinin şair-filosofun fəlsəfə elminin dərinliklərinə bələdçiliyi kimi xarakterizə edir və göstərir ki, “Töhfətül-İraqeyn” poemasındakı “Ərzin fəziləti” fəslində həyata fəlsəfi yanaşma daha mühüm yer tutur. Xüsusilə, “aləmdə məhşər qopacağı”, “bütün cahanın alt-üst olacağı” və s. barədə falçı, rəmmal, fırıldaqçı və s. fikirlərinin qeyri-fəlsəfi, qeyri-həyati məqamlarını ələ salması bu baxımdan diqqəti cəlb edir.

Məlumdur ki, Xaqani əsərlərində zəmanədən şikayət xüsusi yer tutur. Bu cəhət klassik ədəbiyyatda daim müşahidə olunsa da, Xaqani sənətində şikayət motivinin dərəcəsi başqa sənətkarlardan qat-qat yüksəkdə dayanır. Maraqlıdır ki, Xaqaninin zəmanədən şikayət motivinə tədqiqatlarda müxtəlif yanaşma var. Şairin dövrdən şikayəti bir çox tədqiqlərdə düzgün dəyərləndirilsə də, bəzi tədqiqatlarda bədbinliyin təzahürü kimi təhlil olunmuşdur. M.İbrahimov Xaqani yaradıcılığında özünü göstərən şikayət amilinə ictimai məna verir, bu halı tərki-dünya kimi təhlil edənlərə etirazını bildirir. O qeyd edir ki, Xaqaninin “şikayət” modelində dünya aparıcı amilə çevrilir. Dünya isə Xaqanidə geniş ictimai-fəlsəfi məna daşıyır. Yəni Xaqani yaradıcılığında şikayət amili dünyada mövcud olan haqqsızlığa, ədalətsizliyə, insafsızlığa və s. olan konkret etirazdır. Bu cəhəti əsas götürən M.İbrahimov bəzi Avropa tədqiqatçılarının əsərlərində Xaqaninin dünyadan şikayətinin tərki-dünyalıqla, bədbinliklə əlaqələndirilməsinə haqlı etirazını bildirir. O, öz yanaşması ilə Xaqaninin tərki-dünya olmadığını sübut etməyə çalışır. Fikirlərinin təsdiqi üçün “Töhfətül-İraqeyn” poemasının nəsrlə yazılmış müqəddiməsindən misal verir: “Yaramazlıqlar törədən şərabın söhbətindən çəkin, hadisələr doğuran dünyadan həzər elə: bu köhnə, murdar qarıdan canını qurtar, özünü elm və biliyin kölgəsində saxla, əgər istəyirsən qəlbin yaralanmasın, vərəm və alçaqlıq törədən dövlətli adamların qapısına yardım üçün getmə ki, şah acığa düşüb yaramazlıqlar törətməsin” (2, 67).

Eyni ideyanın davamı olaraq M.İbrahimov “Fəxriyyə”dən gətirdiyi misallarda da idrakdan, ağıldan və s. uzaq olan dünyanın Xaqani tərəfindən tənqid olunduğunu qeyd edir və göstərir ki, şairə görə bütün eybəcərliklərin səbəbkarları şahlar, dövlətlilər, xalqı düşünməyənlərdir.

Bütün bunların fonunda M.İbrahimov Xaqani sənətində mövcud olan “yeni ruh”, “yeni nəfəs”, “yeni bədii keyfiyyət” amilinin təhlilini vacib sayır. Xaqani yaradıcılığını həm dövrü üçün, həm də zamanından sonrakı dövrlər üçün əhəmiyyətli hesab edir: “Onun əsərlərinin dərin mənası və füsunkar gözəlliyi zəmanəsində də, sonrakı əsrlərdə də insanları sehirləmiş, görünməmiş yüksək bədii həzz və ləzzətlə onların xəyalını oynatmış, sinəsində zəngin duyğular oyatmışdır. İnsan hisslərinin qüdrətli emosional ifadəsi və fikrin kəskinləşdirilməsi cəhətdən Xaqani nadir sənətkarlardandır. Təsadüfi deyil ki, 800 il ərzində poeziyasının təsir qüvvəsi daima özünü göstərmiş, müxtəlif xalqların böyük şairləri ondan təsirlənmiş, onu ustad, özünü ona şagird hesab etmişlər. Təkcə “Miratüs-səfa” və “Mədain xərabələri”nə onlarla qüdrətli şairlər nəzirələr yazmışlar. Onların sırasında XIII əsr böyük hind şairi Əmir Xosrov Dəhləvi, tacik-İran ədəbiyyatının klassiki Əbdürrəhman Cami və başqaları vardır” (2, 67-68).

Göründüyü kimi, bu dəyərdə Xaqaninin böyüklüyü bir çox baxımdan diqqətə çatdırılır. Xüsusilə Ə.X.Dəhləvi və Ə.Cami kimi sənət korifeylərinin Xaqanidən təsirlənməsi fikri daha əhəmiyyətli görünür. Xaqani ilə Nizami arasında olan mənəvi-estetik bağlılıq faktının təsdiqi M.İbrahimov tədqiqlərində müəyyən yer tuta bilir. Maraqlıdır ki, M.İbrahimov Xaqani ilə Nizami arasında bədii-estetik əlaqədən danışarkən bu təsir və əlaqəni məhdud bir zamanla bağlamır. Nizamidən Sabirə qədərki mərhələdə Xaqani təsirinin mövcudluğunu təsdiqləyən alim, bu təsirin əhəmiyyətini hər hansı konkret bir sənətkarla bağlamır. Onu Azərbaycan bədii təfəkkürünün, Azərbaycan bədii zövqünün inkişafına töhfə kimi dəyərləndirir.

**KAYNAKLAR**

1. İbrahimov M. Əsərləri, 10 cilddə, X cild Bakı: Yazıçı, 1983, 507 s.
2. İbrahimov M. Niyəsiz, necəsiz bir yazısan sən. Bakı: Yazıçı, 1985, 552 s.
3. İbrahimov M. Əsərləri, 10 cilddə, VIII cild, Bakı: Yazıçı, 1981, 303 s.
4. İbrahimov M. Əsərləri, 10 cilddə, IX cild, Bakı: Yazıçı, 1982, 664 s.

# MIRZA IBRAHIMOV AND AZERBAIJAN RENAISSANCE LITERATURE
# MİRZƏ İBRAHİMOV VƏ AZƏRBAYCAN İNTİBAH ƏDƏBİYYATI

**ÜLKER BAHŞİYEVA**

**Dr. ADPU-nun Filoloji fakültesinin, Edebiyatın tedrisi teknolojisi, bölümünün baş öğretim üyesi**

**ORCID İD 0000-0002-5994-2356**

**Özet**

M.İbrahimov Azərbaycan intibahı xüsusiyyətlərindən danışarkən varlıq, kainat, insan, idrak problemlərinə daha çox önəm verir. Bu mənada N.Gəncəvini Şərq intibahının zirvəsi kimi səciyyələndirir. Xaqani, Marağalı Əvhədi, Nəsimi, Füzuli yaradıcılığını Şərq renessansının parlaq səhifəsi hesab edir. Eyni zamanda onların fikirlərində Qərblə səsləşməni də xüsusi qeyd edirdi.

**Anahtar kelimeler:**Azərbaycan, M.İbrahimov, intibah, ədəbiyyat

**Summary**

When M.Ibrahimov talks about the characteristics of the Azerbaijani renaissance, he gives more importance to the problems of being, the universe, man, and cognition. In this sense, N. characterizes Ganjavi as the peak of the Eastern renaissance. Khagani, Maragali considers the works of Avhadi, Nasimi, and Fuzuli to be a bright page of the Eastern renaissance. At the same time, he also emphasized the alignment with the West in their views.

Key words: Azerbaijan, M. Ibrahimov, renaissance, literature

## GİRİŞ

Akademik Mirzə İbrahimovun elmi yaradıcılığında intibah ədəbiyyatı ilə bağlı araşdırmalar mühüm yer tutur. M.İbrahimov XIX əsr realizmi ilə orta əsrlər realizmi arasında müəyyən fərqləri görür və fərqlərin konturlarını da müəyyənləşdirməyə çalışırdı. O, ilk realizmin xüsusiyyətlərini obrazın yeni keyfiyyətdə təsviri, qəhrəmanın fərdiləşməsi, real insani cizgilər kəsb etməsi, psixoloji mürəkkəblikdə ifadə olunması və s. ilə bağlayırdı. Bütün bu xüsusiyyətlərin Azərbaycan intibah ədəbiyyatı üçün xarakterik olduğunu təsdiqləyən M.İbrahimov sadalanan halların Avropa intibahı üçün də xarakterik olduğunu qeyd edir. M.İbrahimov Azərbaycan intibahını təcrid olunmuş şəkildə qəbul etmir. Onu Şərq və müsəlman intibahının tərkib hissəsi kimi götürür. M.İbrahimov həmçinin intibah anlayışının özünə də səciyyəvi xüsusiyyətlər kontekstində yanaşır. Onu yalnız Avropa mədəniyyəti üçün xarakterik saymağı düzgün hesab etmir. O, Azərbaycan renessansının tarixinin Avropaya nisbətən daha əvvəllərə gedib çatdığını və 6"Azərbaycan tarixində XI-XIII əsrlər Renessans dövrü hesab edildiyini" (3, 86) məhz Azərbaycanda iqtisadiyyatın, mədəniyyətin, incəsənətin, elmin, ictimai-fəlsəfi fikrin və s. inkişafına əsaslanmaqla sübut etməyə çalışırdı. "Tarixi faktlar göstərir ki, elm və mədəniyyətin oyanması və yüksəlməsi, tarixi tərəqqinin sürətlənməsi Şərq ölkələrində, xüsusilə Yaxın və Orta Şərqdə o cümlədən Azərbaycanda Avropadan daha əvvəllər (XII-XIV əsrlər) mövcud olmuşdur(1, 81).Azərbaycan fəlsəfi fikri üçün fakta çevrilən bu deyim M.İbrahimov görüşlərində də təsdiqini tapır: "Məlumdur ki, X-XIV əsrlərdə də Təbriz, Şuşa, Gəncə, Şamaxı Azərbaycan şəhərləri olub və bu şəhərlərdə yaranmış mədəniyyət, elm, poeziya, incəsənət Azərbaycan xalqının mənəvi sərvətlər xəzinəsinə daxildir.

Həmin şəhərlərdə X-XIV əsrlərdə yalnız "müxtəlif peşə və ticarət mərkəzləri deyil" həm də, " mədəniyyət mərkəzləri" hesab etmək, eyni zamanda o əsrlərdə Azərbaycan renessansı barədə susmaq açıq-aydın özünü ziddiyyətli vəziyyətə salmaqdır. Azərbaycan renessansı tarixi həqiqətdir. Onun barəsində yarımçıq danışmaq olmaz" (2, 39).M.İbrahimovun Azərbaycan renessansının tarixi barədə bu şəkildə təəssübkeş çıxışı səbəbsiz deyildi. Bildiyimiz kimi, Azərbaycan renessansının tarixi, onu yaradan iqtisadi-ictimai və mədəni zəminlə bağlı "Ədəbiyyat və incəsənət" qəzetinin 1978-ci il 14 oktyabr tarixli sayında prof.Arif Hacıyevin məqaləsi dərc olunmuşdu və bu məqalə ətrafında ciddi yazılar çap edilir, diskussiyalar aparılırdı. Təbii olaraq, buradakı fikirlər Azərbaycan renessansının həqiqi tarixini müəyyənləşdirməyə yardım göstərirdi. Lakin Arutyunov və Apresyan kimi erməni tədqiqatçılarının Azərbaycan renessansı barədə qeyri-elmi fikirləri M.İbrahimovda narahatçılıq yaratmışdır. M.İbrahimov adı çəkilən ermənilərin 1972-ci ildə "Dünya ədəbiyyatı kitabxanası" seriyasının 55-ci cildində və "Vaprosı literaturı" jurnalının 1970-ci il tarixli 2-ci sayında çap etdirdikləri yazılarda Azərbaycan renessansını məhdudlaşdırıcı fikirlərinə, daha doğrusu, "Azərbaycan mədəniyyətində erməni və gürcü renessansına bənzər hadisələr olmuşdur" ifadələrinə kəskin etiraz edir. M.İbrahimov eyni zamanda görkəmli ədəbiyyatşünas Əziz Şərifin də bu şəxslərə ünvanladığı etirazlarından da istifadə edir. Əziz Şərifin fikirlərinə istinad etməklə və öz mühakimələrini ortalığa qoymaqla həm Azərbaycan renessansının tarixininin qədimliyini, həm də Zaqafqaziyada ilkinliyini təsdiqləyir.

M.İbrahimov Azərbaycan intibahı xüsusiyyətlərindən danışarkən varlıq, kainat, insan, idrak problemlərinə daha çox önəm verir. Bu mənada N.Gəncəvini Şərq intibahının zirvəsi kimi səciyyələndirir. Xaqani, Marağalı Əvhədi, Nəsimi, Füzuli yaradıcılığını Şərq renessansının parlaq səhifəsi hesab edir. Eyni zamanda onların fikirlərində Qərblə səsləşməni də xüsusi qeyd edir. Məsələn, "İsgəndərnamə" əsərində alimlərin mükaliməsini Platon, Ksenofont, Afinski fəlsəfi fikirlərinin davamı kimi qiymətləndirir. Burada İtaliya renessansı ilə Azərbaycan renessansı arasında oxşarlığın olduğunu diqqətə çatdırır. M.İbrahimova görə Nizami fəlsəfi görüşləri həm Azərbaycan, həm Şərq, həm də Avropa fəlsəfi görüşlərinə uyğundur.



Ona görə də o, öz tədqiqatlarında Azərbaycan intibahını geniş mənada Şərq intibahı ilə Avropa intibahının paralelliyində təsdiqləyir. Müəllifin bu addımı xüsusi məqsəd daşıyır. O demək istəyir ki, Qərb realizminin tarixini Avropa intibah ədəbiyyatının görkəmli nümayəndəsi A.Dante ilə başlayırlarsa, onda Azərbaycan ədəbiyyatı keyfiyyətlərini özündə əks etdirən Nizami yaradıcılığında da realizmi təsdiqləmək vacibdir. M.İbrahimov realizmdən danışarkən ona elmi-nəzəri və estetik yanaşma nümayiş etdirir. O, realizmi həm ümumi, həm də xüsusi prinsiplər daxilində təsnif edir.

M.İbrahimov varlıqla üzvi bağlılığı, bədii ümumiləşdirməyə nail olmağı, mövzunu xalq həyatından, real tarixdən götürməyi və s. realizmin ümumi prinsiplərinə daxil edir. Bunun əksinə həyatı hərtərəfli, bütün ziddiyyətləri ilə təsvir etməyi, təsvirdə, ifadədə tənqidi əsas mahiyyətə çevirməyi və s. realizmin xüsusi prinsipi kimi götürürdü. M.İbrahimov realizmin ümumi və xüsusi prinsipləri arasındakı fərqlərlə yanaşı klassik realizm ilə intibah realizmi arasındakı fərqlərə də aydınlıq gətirmişdir. Məsələlərin bu şəkildə elmi müstəvidə dəyərləndirməsi M.İbrahimovun elmi-nəzəri təfəkkür səviyyəsinin üstünlüyünü təsdiqləmiş olur. Həmçinin sadalanan məsələlərin dəyərləndirilməsi müqayisəli elmi səviyyədə M.İbrahimovun nəinki Azərbaycan və Şərq, o cümlədən Avropa ədəbiyyatını yaxşı bilməsindən irəli gəlir. Onun həmin problemlərlə bağlı apardığı araşdırmalar bu fikri təsdiqləmiş olur.

Realizmi Azərbaycan renessansı, o cümlədən ümumən renessans problemləri daxilində öyrənərkən M.İbrahimov sənət və ədəbiyyat məsələlərinə böyük aydınlıq gətirirdi.

Qeyd etmək lazımdır ki, M.İbrahimov renessansı sənət və ədəbiyyatla bağlamaqla yanaşı, onu həm də estetik hadisə və ictimai həyatın başqa sahələri ilə də əlaqələndirirdi. Lakin M.İbrahimov renessansın ictimai-siyasi və fəlsəfi məzmunundan çox, onun ədəbi- estetik məzmununun təhlilinə yer ayırırdı. Bu təhlilləri diqqətlə izlədikdə biz tədqiqatçının renessans dövründə ədəbiyyatın yeni məzmun keyfiyyətləri qazanması üzərində dayandığının şahidi oluruq. Təbii olaraq bu yanaşmasında M.İbrahimov realist metod ilə bağlı fikirlərinə yenidən qayıdır, söylədiyi fikirlərin təsdiqi üçün yeni mülahizələrini ortaya qoyur. Məsələn, o, renessans ədəbiyyatında dialoq-mükalimə formasından istifadəni realizm hadisəsi kimi səciyyələndirir. "Renessans dialoqunda söhbət tamamilə real dünyəvi məsələlər ətrafında gedirdi və azad fikrə vüsət verirdi" (2, 27). Mirzə İbrahimov Azərbaycan renessansı ilə Avropa renessansını müəyyən paralel və müqayisələrdə araşdırmış və renessansın yaranması, inkişaf xüsusiyyətləri, estetik xüsusiyyətləri və s. barədə qənaətlərini ortaya qoya bilmişdir.

**KAYNAKLAR**

1. Fərhadoğlu M. Fəlsəfənin əsasları. Bakı, Maarif, 1998, 440 s.
2. İbrahimov M. Niyəsiz, necəsiz bir yazısan sən. Bakı: Yazıçı, 1985, 552 s.
3. Mehdiyev R. Fəlsəfə. Bakı, Şərq-Qərb, 2010, 360 s.

# THE WORK "RINDU ZAHID" BY M. FAZULI AS A UNIQUE EXAMPLE OF OUR CLASSICAL PROSE

# M.FÜZULİNİN "RİNDÜ ZAHİD" ƏSƏRİ KLASSİK NƏSRİMİZİN BƏNZƏRSİZ NÜMUNƏSİ KİMİ

**BABAYEV YAQUB MƏHƏRRƏM OĞLU**

**Filologiya Elmləri Doktoru, Professor, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan**

**ORCİD: https://orcid.org/0000-0002-4738-9426**

**Xülasə**

Məqalədə M.Füzulinin "Rindü Zahid" əsəri təhlil edilir. Göstərilir ki, Füzuli böyük şair olmaqla yanaşı həm də qüdrətli nasirdir. Onun son dərəcə dəyərli nəsr əsərləri də vardır. Bu əsərlərdən biri də "Rindü Zahid"dir. Zahid ata, Rind isə oğuldur. Əsər onların arasında dialoq şəklidə qurulmuşdur.

Məqalədə əsrin mövzusu, məzmunu, ideyası, obrazların xarakteri təhlilə cəlb edilir. "Rindü Zahid"də müəllif ata ilə oğulun dialoqu fonunda həyatın dialektikasını verir. Göstərir ki, maddi aləmdə hər şey ziddiyyətlər və əksliklər üzərində qurulmuşdur. Mütləq yaxşı və mütləq pis yoxdur. Yaxşı görünən hər şeyin təbiətində pis, pis görünən hər şeyin təbiətində isə yaxşı əlamət vardır. İnsan sadəcə olaraq bunları anlayıb dərk etməyə çalışmalıdır. Əsərdə eyni zamanda Füzuli özünün təsəvvüflə əlaqəli baxışlarını da vermişdir. Müəllifə görə ziddiyyətlər ancaq maddi dünyaya, yəni bizim yaşadığımız aləmə məxsusdur. İlahi aləmdə isə ziddiyyətlər yoxdur. Əsər həm də sənətkarın dini-fəlsəfi baxışları ilə də bağlıdır. Burada köhnəliklə yenilik arasında fikir ayrılığı, həyata fərqli baxışların mövcud olması, eyni bir məsələyə müxtəlif istiqamətlərdən yanaşmağın mümkünlüyü də öz əksini tapmışdır.

Məqalədə biz göstərilən bu məsələləri elmi şəkildə şərh etməyə çalışmışıq.

**Açar sözlər:** Klassik nəsr, M.Füzuli, dialektika, "Rindü Zahid", təsəvvüf ideyaları, məna aləmi, simvolik məna



**Summary**

The article analyzes M. Fuzuli's work "Rindu Zahid". It is shown that Fuzuli is a great poet as well as a powerful prose writer. He has extremely valuable prose works. One of these works is "Rindu Zahid". Zahid is the father and Rind is the son. The work is structured as a dialogue between them.

In the article, the theme, content, idea, character of the images are analyzed. In "Rindu Zahid", the author gives the dialectic of life against the background of the dialogue between father and son. It shows that everything in the material world is built on contradictions and opposites. There is no absolute good and no absolute bad. Everything that looks good has a bad sign in its nature, and everything that looks bad has a good sign in its nature. One should simply understand and try to understand them. At the same time, Fuzuli gave his views related to Sufism in the work. According to the author, contradictions belong only to the material world, that is, the world in which we live. There are no contradictions in the divine world.

The work is also related to the religious and philosophical views of the artist. The difference of opinion between the old and the new, the existence of different views on life, the possibility of approaching the same issue from different directions is also reflected here.

In the article, we have tried to scientifically interpret these issues.

**Key words:** Classical prose, M. Fuzuli, dialectics, "Rindu Zahid", ideas of Sufism, world of meaning, symbolic meaning

M.Füzuli sözdən möcüzə yaradan bənzərsiz nəzm ustadı olmaqla bərabər müqtədir nasir kimi də tanınmışdır. O, coşqun və parlaq ilhamı ilə Azərbaycan nəsrinə qiymətli töhfələr vermişdir. Sənətkarın nəsr əsərləri, əsasən, aşağıdakılardan ibarətdir: «Rindü Zahid»; «Səhhət və Mərəz»; «Beş nəsr məktubu» («Şikayətnamə» də daxil olmaqla); «Hədiqətüs-süəda». Əvvəlki iki əsər fars, nəsr məktubları və «Hədiqətüs-süəda» isə Azərbaycan dilindədir. Bunlardan əlavə onun divanlarına, «Leyli və Məcnun»a, «Hədiqətüs-süəda»ya yazdığı dibaçələr, «Mətləül-etiqad» adlı ərəbcə qələmə alınmış elmi-fəlsəfi risaləsi də nəsrlədir.

Nasir Füzulinin novatorluq bacarığı "Rindü Zahid" əsərində bir daha özünü göstərmişdir. Ədəbi abidə istər ideya-məzmun keyfiyyətləri, istərsə də forma-struktur əlamətləri ilə tam orijinal, bənzərsiz bir sənət incisidir. Burada bədii yönümdə toxunulan məsələlər, qoyulub şərh edilən problemlər bütün zamanlar üçün aktualdır. İzlənilən estetik ideal, irəli sürülən qayə düşündürücüdür. Zaman etibarı ilə konkret tarixi bir dövrlə yox, müəyyən düşüncəyə, etiqada, elmə, əmək və peşəyə, sənət vərdişlərinə, tərbiyə sisteminə və s. yiyələnmiş sosial toplumun mövcud olduğu min illərlə bağlıdır.

Janr etibarı ilə «Rindü Zahid»i nisbətən iri həcmli **hekayə** hesab etmək olar. Əslində forma, zahiri biçim bütünlüklə hekayənin standartlarına uyğun gəlir. Yalnız mətnə artırılmış və onu bəzəyən çoxlu sayda şeir parçaları və giriş həmin standartı pozur. Süjet və mətnin dialoqlar üzərində qurulması isə hekayənin orijinal məziyyəti kimi dəyərləndirilə bilər. Burada məsələlərə fəlsəfi baxış və münasibət də güclüdür. Sadəcə olaraq müəllif bu fəlsəfi mahiyyəti bədii mətndə, mükalimələrin gözəl ifadə tərzində xeyli dərəcədə asan anlaşılan, ürəyəyatan bir ovqata gətirə bilmişdir.



Deyildiyi kimi, «Rindü Zahid» özünəməxsus forma-struktur əlamətləri ilə diqqəti cəlb edir. Əsər kiçik girişlə başlayır. Sonra hadisələrin təsvirinə keçilir. Göstərilir ki, əcəm diyarında bir zahid var idi. Müəllif onu oxucuya *«olduqca vüqarlı, çox təmiz və pak»* bir şəxs kimi təqdim edir. Yəni onun səciyyəsi barədə əvvəldən müsbət rəy yaradır. Zahidin Rind adlı oğlu vardır. Sənətkar onu da pozitiv ünvan və epitetlərlə oxucuya tanıdır: *«Kamalda misli-bərabəri yox idi», «kamallı simasında istedad günəşinin parıltısı müşahidə edilir», «fərasətli üzündə gözəl qabiliyyətinin əlaməti oxunur».*

Rind həddi-büluğa çatsa da, heç bir peşə və sənətə yiyələnməmişdir. Onun gələcək taleyi atanı – Zahidi narahat edir. O, oğluna yol göstərmək, məsləhət vermək istəyir ki, bir işin qulpundan yapışsın. Özünə bir sənət seçsin ki, gələcəkdə güzəranını təmin edə bilsin. Atası öləndən sonra kimsəyə möhtac olmasın. Bu məqsədlə oğlu ilə söhbət etməyi lazım bilir. Beləliklə, ata ilə oğul arasında dialoq başlayır. Əsərdə əhvalatın bütün gedişatı bu qayda, yəni ata ilə oğulun mükaliməsi şəklindədir. Mükalimə əvvəldən sona qədər davam edir. İzhar olunan fikirlərdən sonra bir qayda olaraq fikrin məntiqinə uyğun qitələr verilir. Bu cür şeir parçaları əsərə xüsusi forma gözəlliyi verməklə yanaşı irəli sürülən mətləbləri, söylənilən rəyləri daha da tutarlı, yaddaqalan edir.

Ata oğluna elə məşğuliyyət növləri öyrənməyi, elə peşə və sənətlərdən yapışmağı təklif edir ki, həm maddi cəhətdən onun güzəranını təmin etsin, başqalarına möhtac olmasın, həm də cəmiyyətdə az-çox nüfuz qazanmasına səbəb olsun, hörmət-izzətsiz bir kəsə çevrilməsin.

Zahid gənc Rində əvvəlcə maarif kəsb etməyi, elm və xətt (yazı) öyrənməklə cəmiyyətdə müəyyən mövqe tutmağı tövsiyə edir. Oğlu bunu bəyənmədikdə padşahlara xidmət (dövlət qulluğunda çalışmaq), əkinçilik, ticarət, ayrı-ayrı şəhər sənətlərindən birini seçmək, ibadətlə məşğul olmaq (ruhani kimi fəaliyyət göstərmək) və s. kimi məşğuliyyət növlərindən hansını bəyənirsə, ona meyl etməyi məsləhət bilir. Lakin Rind bunlardan heç birini xoşlayıb qəbul etmir. Hər birində müəyyən nöqsan görür.

Bir ata kimi Zahid tamamilə müsbət, xeyirxah mövqedən çıxış edir. Müdrik, ağıllı, canıyanan, övladının gələcək taleyini düşünən valideyn kimi davranır. Onun məsləhətləri faydalı, səmimi, nəsihətləri doğrudur. Bununla belə, oğul həyati baxımdan, həqiqətən faydalı, müdrik görünən həmin məsləhət və nəsihətlərdən heç biri ilə razılaşmır. Həm də Rind özü də səbatlı, düzgün təsir bağışlayır. Qəribədir ki, biz atanı nə qədər haqlı hesab ediriksə, oğula da bir o qədər bəraət qazandırırıq. Əlbəttə, bu, sənətkarın sonsuz təxəyyülü, yüksək idraki nəticələri, kəskin məntiqi, dərin müşahidə və duyum qabiliyyəti hesabına baş verir. Çünki o, hər iki tərəfi inkarolunmaz dəlil və iti məntiqlə silahlandırır. Eyni bir obyekt, məfhum, peşə, hadisə və s. barədə həm Zahidin, həm də Rindin dedikləri doğrudur. İstər təsdiq, istərsə də təkzib sübuta əsaslanır. Adı çəkilən məşğuliyyət növləri barədə müsbət mənada atanın dedikləri həqiqətdir. Lakin eyni şey haqqında oğulun mənfi anlamda söylədikləri də doğrudur. Məsələn, övladına əkinçi olmağı məsləhət görən və bu peşəni tərifləyən ata deyir: *«Ey Rind! İndi ki şahlara xidmətdə tənbəl, sultanlara yaxın olmağın ləzzətindən qafilsən onda əkinçilik kimyasından faydalan ki, əkinçilik şərab mənzilinin yoludur. Kim tarlaya bir toxum salsa, o, hər iki dünya evini abad eləmiş olar»*. Lakin Rind əkinçilik sənətini bəyənmir və bunu əks dəlillə əsaslandırır: *«Ey Zahid! Əkinçilik mənfəət ümidilə bir xəsarətdir. Bu bir zəhmətdiri ki, rahətlik arzusu ilə çəkilir. Gərək həmişə toxum əkəsən, sonra müntəzir olasan ki, nə zaman hasil olacaq. Bu isə ömrün azalmasını tələb etmək, ölümün yetməsinə tələsmək deməkdir. Bu mətləbin də həqiqəti məlumdur və ürfan əhli tərəfindən pislənmişdir»*. 

«Rindü Zahid» Füzulinin həyat həqiqətləri, həyat və axirət, maddi və mənəvi aləm, etiqad, insanın yaşayış qaydaları, mənəvi-əməli borcu, nəfs, cəhalət, ağıl, Allaha ibadət və itaət, küfr, iman, musiqi və nəğmə, eşq, gözəllik və s. rəngarəng məsələlər barədə düşüncələrini dolğun şəkildə təcəssüm etdirir.

Ata ilə oğulun münaqişəli dialoqunun sonrakı axarı övlad, tərbiyə, ata-övlad münasibətləri və bunların qarşılıqlı mənəvi borcu, dünyanın zövqü-səfası və qəm-qüssəsi, səfərə çıxmağın, səyahətin faydaları, insanın həyatı boyu ən böyük xətaları və bunlardan qurtuluşun yolu, gözəllik, onun pis və yaxşı cəhətləri və s. dünyəvi problemlərlə bağlı davam edir. Təbii ki, bütün bu məsələlərdə yenə hər iki tərəfin mövqeyi, fikirləri fərqli, bir-birinin ziddinədir.

Əsərdə maraqlı məqamlardan biri müdrik qoca ilə çılğın gəncin səyahətləri zamanı məscid və meyxanə ilə əlaqəli sərgüzəşt, etiqad nöqteyi-nəzərindən bu iki fərqli məkan barədə onların apardıqları müzakirə, müqayisə və fikir münaqişəsidir.

Rindin təklifi və təhrikilə Zahid gör-götür məqsədilə oğlunu şəhərə gəzdirməyə çıxarır. Onlar əvvəl məscidə, sonra isə meyxanəyə rast gəlirlər. Rind bunların nə olduğunu soruşur. Ata məscidi Allahın, meyxanəni isə şeytanın evi kimi təqdim edir. Cəhalət qaranlığından qurtulmaq, Tanrı feyzini qazanmaqdan ötrü oğluna məsciddə qərar tutub ibadət yolunu seçməyi rəva görür. Lakin Rindin həmin təklifdən imtina barədə gətirdiyi dəlil və nəzəri faktlar qarşısında aciz qalır. Rind deyir: *«Ey Zahid! Bura kamillərin yeridir. Kəlam öyrənmək məktəbi deyil. Bu, vəslə çatmışların mənzilidir, vüsal yolu deyil»*. Əksinə atasının fəsad yuvası, *«dünyadan əl çəkmiş və axirətdən əl üzmüşlərin yeri»* kimi pislədiyi meyxanə isə Rindin xoşuna gəlir. Atasının küfr barədə ittihamlarını oğul danılmaz isbatlarla təkzib edir.

Əsərdə mühüm yer tutan bu epizod başqa ideya işartıları ilə yanaşı həm də yaşlı nəsillə gənc nəslin zövq və həyata baxışlarının, dünyəvi və dini maraqlarının toqquşması, ixtilafı kimi də dəyərləndirilə bilər.

Müxalif tərəflərin maddi dünya qayğısı və axirət qorxusu barədə rəyləri də başqa-başqadır. Çünki dünya əzabına və axirət hesabına hər iki tərəf ayrı-ayrı mövqedən yanaşırlar. Ancaq o da var ki, hər iki mövqe narahatlıqdan, qayğıdan xali deyil. Əgər *«axirət işlərinin fikri cana bir dərddir»sə, «dünyanın işləri ürəyə bir yükdür»*. Dünyaya bağlılıq nəfsə uymaq deməkdirsə, axirət qorxusu ilə ibadət və təqlid (dini ehkamları, şəriət qaydalarını qəlbin istəyi ilə deyil, Allah xofu və axirət qorxusu naminə kor-koranə təqlid etmək) də riyakarlıqdır.

Nəğmə və musiqiyə münasibətdə Zahid radikal, mühafizəkar ruhanilərin mövqeyində dayanır. Bunları haram, *«qafillik badəsi»* sayır. Rind isə dünyəvi cəbhədə qərar tutur. Əksinə musiqi və nəğməni *«səma eyvanının səməndi», «qafilləri eşq dərdinin nəşəsindən xəbərdar edən»* vasitə kimi tərifləyir.

Eşqə və gözəlliyə münasibətdə platforma dəyişir. Zahid məsələyə dünyəvi, Rind isə sufizm baxışları prizmasından baxır.

Yuxarıda deyildiyi kimi, «Rindü Zahid»də ata ilə oğul əlvan, çoxsaylı mətləblər, dini və dünyəvi məsələlər, məfhumlar, fəaliyyət növləri, hissi-mənəvi anlayışlar, maddi nemətlər və s. barədə söhbətləşir, mülahizə yürüdürlər. Bununla belə müəllif mükalimənin gedişatına elə bir təbiilik, məntiqi axar vermişdir ki, məsələdən-məsələyə, anlayışdan-anlayışa keçiddə zəncirvari bağlılıq, daxili nizam mütləq mənada hiss olunur. Həm də bu nizam son dərəcə dəqiq, uyarlı və cazibədar görünür. Hər şey vahid bir xəttin ətrafında cəmləşir.

Zahidlə Rind arasındakı zidd, müxalif danışıq uzun-uzadı olub, əsərin axırına yaxına qədər davam edir. Fikir və mülahizələrdə barışıq, yaxınlaşma sezilmir. Belə bir vəziyyətdən təngə gələn ata gənc oğlundan barışıq və razılaşma üçün çıxış yolunun nədən ibarət olduğunu soruşur: *«Ey Rind! Vaxtımız münaqişə ilə keçdi. Ruzigarımız mücadilədə tələf oldu. Nə mənim nəsihətlərim sənə fayda verdi, nə də sənin dəlillərin məni qane etdi. Əgər aramızda olan bu ziddiyyətə görə səndən ayrılsam, sənə olan atalıq əlaqəsi ixtilat ətəyindən tutar. Əgər müxalifəti götürmək üçün sənə nəsihət etsəm, sənin könül vərəqin bu yazını qəbul etməz. Mən buna çarə bilmirəm. Özün de görüm, bunun çarəsi nədir?»***.** 

Rindin istər onlar arasındakı münaqişənin səbəbi, istərsə də bundan çıxış yolunun tapılması ilə əlaqəli izahatı, məfkurəvi rəyi sufizmin dini-fəlsəfi etiqad və inanc təlimindən qidalanır. Oğul atasını riyakarlıqda və təqliddə, özünü isə mümkün aləmin (fiziki gerçəkliyin) həvavü həvəsinə, fisqü fücuruna uymaqda günahlandırır. Bildirir ki, sən Allaha həqiqi sevgi ilə deyil, cənnət arzusu ilə, yəni təmənnalı ibadət edirsən. Bu, riyakarlıqdır. Mən isə maddi aləmin həvavü həvəsinə, fasiq işlərinə meyl edirəm. Bu isə pis əməl və cəhalətdir. Rindin vəhdəti-vücud fəlsəfəsindən qaynaqlanan irfani şərhinə görə ziddiyyətlər, əksliklər, mübahisələr maddi gerçəkliyə aid mütləq və daimi qanunauyğunluqdur:

*Sən və mən vücud mülkündə qaldıqca*

*Haqq ilə batil arasında mübahisə olacaqdır.*

*Biz aradan qalxmalıyıq ki, batil də qalxsın,*

*O zaman danışıqların hamısı büsbütün həqiqət olar.*

Qitədəki mətləb əsərin mühüm ideya xətlərindən birini təşkil edir: Cism və hadisələr aləmi əbədi ixtilafın məskənidir; Məna aləmi isə bu ziddiyyətlərdən xalidir.

Əsər ata ilə oğulun barışığı, vahid rəyə gəlib məhəbbət əhli kimi mənən eyniləşmə situasiyası ilə yekunlaşır. Hətta onlar yüksək məqama – *«vəhdət dərəcəsinə»* çatırlar və *«məhəbbət yolu»* tuturlar. Bəs buna necə nail olurlar? Zahid riyanı atır, Rind isə həvavü həvəs və dünya istəklərindən imtina üçün tövbə yolunu tutur. Bu isə onları – maddi dünya əhlini müxalifət və ziddiyyətlərdən xilas edir.

«Rindü Zahid»də ideya xətləri çoxşaxəlidir. *Əvvələn*, buradakı mübahisəni qocalıqla gənclik arasındakı fikir ayrılığı kimi başa düşmək olar. Doğrudan da, insanlığın məlum tarixi boyunca yaşlı nəsillə gənclik arasında həmişə baxışlar fərqlənib, bəzən də bu, fikir toqquşmasına qədər kəskinləşib. *İkincisi*, həyatda mütləq yaxşı və mütləq pis yoxdur. Mövcud aləmdə gözəl görünən hər şeydə çirkinlik, faydalı görünəndə səmərəsizlik, xeyirli görünəndə şər əlamətlər tapmaq mümkündür. *Üçüncüsü*, məsələyə təriqət prizmasından yanaşsaq, ziddiyyətlər surət aləminə xasdır. Əkslik, dialektika cisim və hadisələr dünyasının dəyişməz, əbədi və mütləq xassəsidir. Məna aləmi isə bu cür müxalifətdən kənardadır və s.

«Rindü Zahid»in ideya-məzmun modeli, kompozisiya sistemi əvvəldən sona qədər tarazlaşdırılmış **«dəlil – əks-dəlil», «təsdiq – təkzib», «iqrar – inkar»** prinsipi üzərində qurulmuşdur. Belə bir orijinal model dünya ədəbiyyatı üçün nadir ədəbi fəndlərdəndir. Bu mənada əsər dünya ədəbiyyatının nadir incilərindəndir.

**Ədəbiyyat**

1. **Araslı H.** Böyük Azərbaycan şairi Füzuli. Bakı, 1958

2. **Araslı H.** Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı, 1998

3. **Babayev Y**. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər). Bakı, 2018

4. **Əliyev S.** Füzulinin poetikası. Bakı, 1986

5. **Füzuli M**. Əsərləri, 5 cilddə (tərtib edəni: Araslı H.), V c., Bakı, Elm, 1985

6. **Füzuli M.** Əsərləri, 6 cilddə (tərtib edəni: Araslı H.), II cild, Bakı, 1958

7. **Füzuli M.** Seçilmiş əsərləri. 2 cilddə. I c. (lirik əsərləri-şərhlərlə. Tərtib edəni: Yusifli X.) Bakı, 2005; II c. (epik əsərləri-şərhlərlə. Tərtib edəni: Xəliloğlu S.), Bakı, 2005

8. **Füzuli M.** Hədiqətüs-süəda (tərtibçilər: Səfərli Əlyar, Nağısoylu Möhsün, Göyüşov Nəsib), Bakı, 1993

9. **Füzuli M.** Bəng və Badə (tərtib edib nəsrə çevirəni, müqəddimə və şərhlərin müəllifi: Əliyev S.). Bakı, 1993

10. **Hikmət İ.** Azərbaycan ədəbiyyatı tarixi. 2 cilddə, II c., Bakı, 1928

11. **Köçərli F.** Azərbaycan ədəbiyyatı. 2 cilddə.I c., Bakı, 1978

# PROSE OF M. FAZULI: IDEA-ARTISTIC CONTEXT OF THE WORKS "SAHHAT AND MERAZ" ("HEALTH AND DISEASE") AND "COMPLAINT"

# M.FÜZULİNİN NƏSRİ: "SƏHHƏT VƏ MƏRƏZ" ("SAĞLAMLIQ VƏ XƏSTƏLİK") VƏ "ŞİKAYƏTNAMƏ" ƏSƏRLƏRİNİN İDEYA-BƏDİİ SİQLƏTİ

**BABAYEV YAQUB MƏHƏRRƏM OĞLU**

**Filologiya Elmləri Doktoru, Professor, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan**

**ORCİD: https://orcid.org/0000-0002-4738-9426**

**Xülasə**

Məqalədə M.Füzulinin "Səhhət və Mərəz" (Sağlamlıq və Xəstəlik") və "Şikayətnamə" adlı nəsr əsərləri təhlilə cəlb edilir. Göstərilir ki, Füzuli qüdrətli şair olmaqla yanaşı həm də gözəl nasirdir. Onun bir neçə dəyərli nəsr əsəri vardır. Bu əsərlərlə o, bədii nəsrimizi daha da zənginləşdirmişdir. Həmin bədii nümunələr sırasında "Səhhət və Mərəz" və "Şikayətnamə də vardır.

"Səhət və Mərəz" fars dilində qələmə alınmış alleqorik nəsr əsəridir. Burada müəllifin orta əsrlər şərqində elmin və fəlsəfənin tibbə, anatomiyaya, təriqət baxışlarına, dini-fəlsəfi görüşlərə aid düşüncə sistemi məharətlə qovuşdurulmuşdur. Məqalədə bu məsələyə xüsusi diqqət yetirilir və onun şərhi verilir. Eyni zamanda əsərin mövzusu, ideyası, məzmun xüsusiyyətləri, obrazlar aləmi və s. məsələlər şərh edilir.

Məqalədə "Şikayətnamə" əsəri də mövzu, məzmun və ideya baxımından nəzərdən keçirilir. Göstərilir ki, türkcə qələmə alınmış bu əsər epistolyar janrda yazılmışdır. Məktub olsa da, Füzuli onu bədii obrazlarla bəzəyərək bədii əsər səviyyəsinə qaldırmışdır. Məqalədə əsərin ideya-bədii xüsusiyyətlərinin izahına xüsusi diqqət yetirilir.

**Açar sözlər: :** Kilassik nəsr, M.Füzuli, satira, "Səhhət və Mərəz", "Şikayətnamə", təsəvvüf ideyaları, epistolyar janr, simvolik məna

**Summary**

In the article, M. Fuzuli's prose works "Sahhat and Meraz" (Health and Disease) and "Complaint" are analysed. It is shown that besides being a powerful poet, Fuzuli is also a beautiful prose writer. He has several valuable prose works. With these works, he enriched our artistic prose. Among those artistic examples are "Sahhat and Meraz" ("Health and Disease") and "Complaint".

"Health and Disease" is an allegorical prose work written in Persian. Here, the author's thought system related to medicine, anatomy, sect views, religious-philosophical meetings of science and philosophy in the Middle Ages is skillfully combined. The article pays special attention to this issue and gives its interpretation. At the same time, the topic, idea, content characteristics, world of images and other issues are interpreted.

In the article, the work "Complaint" is also considered in terms of topic, content and idea. It is shown that this work written in Turkish was written in the epistolary genre.

Although it is a letter, Fuzuli raised it to the level of a work of art by decorating it with artistic images. The article pays special attention to the explanation of the idea-artistic features of the work.

**Key words:** Classic prose, M. Fuzuli, satire, “Sahhat and Meraz” (“Health and Disease”, “Complaint”, ideas of Sufism, epistolary genre, symbolic meaning

«Səhhət və Mərəz» («Sağlamlıq və Xəstəlik») əsəri Füzulinin yaradıcılığında mühüm yer tutur. «Ruhnamə» adı ilə də tanınan «Səhhət və Mərəz» Füzulinin alleqorik nəsr örnəyidir. Fars dilində qələmə alınan bu gözəl əsər şərq ədəbiyyatında alleqorik söz sənəti abidələri içərisində layiqli yer tutur. O, təriqət ideyalarını insan vücudu və varlığı ilə bədii yönümdə məharətlə uzlaşdıran, onu tibbi-bioloji proseslərlə elmi şəkildə əlaqələndirən, dolğun bir dini-fəlsəfi nümunədir. Biz burada elmi, dini-fəlsəfi, sufi-panteist və bədii fikrin sənətkar təxəyyülünün gücü ilə dahiyanə tərzdə sintez edildiyini görürük. Buraya konkret və abstrakt alleqorik personajlara aid əlamətlərin, xüsusiyyətlərin son dərəcə inandırıcı detallarla oxucuya təqdim olunması faktını da əlavə edə bilərik.

Əsərdə hüsn və eşq məsələlərinə də xeyli yer verildiyindən bəzən onu «Hüsn və eşq» də adlandırırlar. Əslində isə burada əsas məqsəd insan ruhunun sərgüzəştini sənətkarın bədii fantaziyası, dünyagörüşü, elmi-fəlsəfi düşüncə tərzi çərçivəsində oxucuya çatdırmaqdır. Onun «Ruhnamə», başqa sözlə desək, ruh haqqında əsər adlandırılması da bununla əlaqədardır.

Təsəvvüf təliminə görə insanın cismani həqiqətindən çox-çox əvvəl yaranmış ruha vücud sevgisi verilmişdir. Ona görə də aləmi-lahutda (ilahi aləmdə) qərar tutmuş ruh Xaliq tərəfindən hökm olunduğu məqamda **«qövsü-nüzul»a** (enmə qövsü) girir. Mülk aləminə enib dörd ünsürdən ibarət cismə daxil olur. Müəyyən müddət insan bədəni ilə yaşayıb (həm də bədəni canlı varlıq olaraq yaşadıb) sonra onu tərk edərək yenidən əslinə, gəldiyi aləmə qayıdır. «Səhhət və Mərəz»də də bu macəra nağıl edilir. Bir insan ömrünün yaşayış hüdudları çərçivəsində ruhun başına gələnlər hekayət şəklində söylənilir. Müəllif hadisələri folklorvari girişlə başlayır. Yəni onu ravinin dili ilə nəql edir. Göstərir ki, Cəbərut aləmində (cəlal və əzəmət aləmi) doğulmuş, lahut fəzasında (ilahi aləm) məskunlaşmış Ruh adlı zatı təmizin başına səfər havası düşür. O, aləmi-nasuta (insanlar aləminə) enib bədən mülkünü görür və xoşlayır. Bu mülkdə qərar tutur.



Sənətkar insan bədənini ayrıca bir səltənət kimi təsvir edir. Ruh burada müxalifətdə olan, lakin bir-birindən ayrı yaşamaları mümkün olmayan Qan, Səfra, Bəlğəm və Sevda kimi varlıqlar görür. Onlar bir-birləri ilə ziddiyyət təşkil etsələr də, birlikdə bədənin yaşamasının səbəbkarlarıdır və əxlat hesab olunurlar. Ona görə də rüknlər adlanırlar. Ümumiyyətlə, dörd ünsürdən ibarət bədən zidd varlıqların birləşməsinin məskənidir. Məsələn, acı – şirin; quruluq – rütubət; hərarət – soyuqluq; qəm – fərəh; qorxu – ümid; ədavət – məhəbbət və s. Müəllif bu cür həm konkret, həm də abstrakt varlıqların insan cismindəki rolunu, vəzifəsini məharətlə açıb göstərir.

Ruh Bədən diyarında Məzacla evlənir və onların Səhhət adlı övladları dünyaya gəlir. Deməli, sənətkarın qənaətinə görə Səhhət Ruh ilə Bədənin qovuşmasından nəşət tapır.

Ədib insan vücuduna aid istər konkret, istərsə də mücərrəd mövcudatı dəqiqliklə təsvir obyektinə çevirir. Bədən məmləkətində Dimağ, Ciyər və Ürəkdən ibarət üç abad şəhər görən Ruh onları səyahətə çıxır. Hər bir orqanın xüsusi xidmətçiləri, bu xidmətçilərin də məxsusi vəzifələri vardır. Vücud diyarının abadlığını, cah-cəlalını təmin etməkdə həmin xidmətçilərin mühüm rolu vardır. Ruh əvvəl Dimağ qələsini gəzir. Burada on muzdur çalışır; eşitmə, görmə, iybilmə, dadbilmə, sürtünmə hissi, xəyal, vahimə və s. Daha sonra Ciyər şəhərinə səyahət edən Ruh burda da cismin və sağlamlığın keşiyində dayanan qulluqçular görür. Nəhayət, Ürək şəhərinə gələn Ruh oranı xoşlayır və orada qərar tutur.

Ancaq burada bir-birinə əks varlıqlarla üzləşir: Ümid – Qorxu, Məhəbbət – Ədavət; Fərəh – Qəm. Birincilər xeyirə, ikincilər şərə xidmət edirlər. Ona görə də Səhhət şəfa əhli olan Ümid, Fərəh və Məhəbbəti saxlayıb, cəfa əhli sayılan Ədavət, Qorxu və Qəmi Ürək şəhərindən qovur. Bu hadisə əsərin *düyün nöqtəsi (zavyazka)* sayıla bilər. Çünki buraya qədər konfliktsiz davam edən süjet xəttində hadisələr məhz burada düyünlənir. Konflikt, iki tərəf – müsbət və mənfi tərəflər arasında mübarizə başlanır. Daha doğrusu, qütbləşmə, cəbhələşmə baş verir.

Əsərdə ruhun cisimdəki macəraları və orqanizmdə baş verən tibbi-bioloji proseslər cəmiyyətə məxsus ictimai-siyasi hadisələrlə, ədavət və mənəmlikdən törəyən savaş ehtirasları ilə uzlaşdırılır. Ürəkdən qovulmuş Qəm, Qorxu və Ədavət düşmənçiliyə başlayır. Tərəfdarlarını toplayır, qoşun düzəldir və Ürək şəhərinə hücum edirlər. Ruh gərgin, dramatik situasiya ilə üzləşir.

«Səhhət və Mərəz»də insanı idarə və mühazifə etməkdə ağılın roluna ciddi önəm verilir. Çıxış yolu tapmaqda aciz qalan Ruh Ümidin məsləhəti ilə Əqli köməyə çağırır. Əqlin yardımı və tədbiri ilə birinci hücum dəf edilir. Ancaq fürsət tapıb qaçmağı bacaran Ədavət Mərəzlə birləşib Ürəyə yeni hücum təşkil edir.

Sənətkar xəstəliyin baş vermə səbəbləri və müalicə üsulları barədə maraqlı elmi mühakimə və mülahizələr irəli sürür. Bu mühakimə və mülahizələr orta əsrlərdə şərq təbabət elminin nailiyyətlərinə əsaslanır. Müəllifin fikrincə bir çox xəstəliklərin səbəbləri orqanizmdə baş verən maddələr mübadiləsindəki tarazlığın pozulması ilə bağlıdır. Həmin tarazlıq və nizamın bərpa edilməsi xəstəliyin müalicəsində mühüm vasitələrdəndir. Pəhriz deyilən vasitələr içərisində xüsusi əhəmiyyət kəsb edir.

Növbəti hücum zamanı Mərəz quru və soyuq qida vasitəsi ilə Bədənə daxil olur. Qan, Bəlğəm, Səfra və Sevda kimi əxlatın hər birinə ayrılıqda yanaşıb onların vasitəsi ilə Bədənə rəxnə salmaq, onun növrağını pozmaq istəyir. Lakin yenə Əql köməyə gəlir. Pəhriz vasitəsilə təhlükəni aradan qaldırır. Bununla belə Əql hüdudludur. O, bütün işlərin öhdəsindən gəlmək qüdrətinə malik deyil. Belə ki, Mərəzin yeni hücumu zamanı Əql aciz qalır. Məzac köhnə dostları Əxlatı məzəmmət etməklə məsələni qaydaya salır, təhlükəni sovuşdurur.



Beləliklə, nizama düşən, cah-cəlal qazanan Bədən mülkündə Ruhun fərəhli, əzəmətli dövranı başlayır. O, Hüsnə vurulur və Eşqə meyl edir. Hüsnə vurğunluq onu qafilə, özündən xəbərsizə çevirir. Başqa sözlə, Hüsn və Eşqin cilvəsi, füsunkarlığı və bundan doğan «*heyrət onu bir dərəcəyə yetirdi ki, ixtiyar cilovunu əlindən verdi və özündən xəbərsizlik vadisinə düşdü*».

Əsərdə Ruhun Hüsn və Eşqlə hekayəti dolğun obrazlarla, sirayətedici bir pafosla təsvir edilir. Əslində bu, Ruhun vücud məmləkətində ən fərəhli, məsud və kənar qayğılardan azad yaşayış zamanıdır: *«Ruh kəmali-əzəmətlə yüksək bir dərəcəyə çatdı. Onun keyfiyyəti cövhərə, cövhəri cismə və cismi ərəzə tam bir lətafət verdi. Gözəlliyi, işvəsi, sevimliliyi həddən aşdı. Köhnə dostların da onunla müsahib (həmsöhbət, yoldaş) olmaq ləyaqəti qalmadı»*.

Bu məsud yaşayış dövründə Ruhun qayğıları ancaq Hüsn və Eşqlə bağlanır. Hüsnə vurğun və şeydalıq yolu tutmuş qafil Ruh Eşqin məsləhəti ilə vücuda məxsus Hüsnün surətini çəkdirir və onu idrak xəzinəsində əmanət kimi saxlatdırır. Lakin mülk aləmində əbədi heç nə olmadığı kimi Ruhun məsud yaşayışı, fərəhli şeydalığı da uzun sürmür. O, Eşqin məsləhəti və həmdəmliyi ilə Bədən ölkəsini səyahətə çıxır. Müəllif bu səyahət zamanı Bədənin ayaqdan başa qədər çeşidli üzvlərini, hüsn elementlərini yaddaqalan, cazibədar lövhələrlə təsvir edir. Nəhayət, öz məskəninə qayıdan Ruh tamamilə fərqli bir mənzərə ilə üzləşir. Könül şəhərinə rəxnə düşmüş, onun növrağı pozulmuşdur. Bədən ölkəsi viranəyə çevrilmiş, Hüsndən əsər-əlamət qalmamışdır. Eşq bütün bunların səbəbini Ruha aydınlaşdırır. Qəflətdən oyanan, həqiqətləri anlayan Ruh artıq Bədən səltənətində qalmağın mümkün olmadığını görür.

O, müvəqqəti olaraq məskunlaşdığı bu diyarla vidalaşmalı və əlaqəni kəsməli olur. Bütün məcarələr, qeylü-qallar, qayğılar arxada qalır. Ruh vücudu tərk edir: *«Ruh bu məqama yetişəndə «Cəbərut» və «Lahut» aləmlərini gördü. Əsl mənzilinə çatdı və yolkəsənlərin qeydindən qurtardı. İşin sonunda özünü özünə çatdırdı. Məşuqluq və Aşiqlik o xəlvətdən xaricdə qaldılar»*.

«Səhhət və Mərəz»dəki əsas ideya istiqamətlərindən biri belə bir qayənin ifadəsinə yönəlir ki, ruh əbədi, cisim isə müvəqqətidir. Daimi olan Ruh ona təlqin edilən vücud sevgisinə görə insanların yaşadığı fiziki varlığa enir, müəyyən zaman çərçivəsində vücudla qovuşub onunla birlikdə ömür sürür. Maddi aləmin zaman, məkan və hərəkət (dialektika) ahənginə tabe olur. Lazımi məqamda isə onu tərk edib öz əslinə qayıtmalı olur. Deməli, Ruh əbədi, bədən isə ötəridir. Yalnız müəyyən zaman intervalında mövcud ola bilər. Bu, cisim və hadisələr aləminin dəyişməz xassəsidir.

**«Şikayətnamə» («Nişançı Paşaya məktub»).** M.Füzulinin Azərbaycan dilində nəsrlə yazdığı **beş məktubu** gəlib bizə çatmışdır: Nişançı Paşaya məktub; Bağdad qazisi Əlaəddinə məktub; Mosul mirləvisi Əhməd bəyə məktub; Bəyazid Çələbiyə məktub; Ayaz Paşaya məktub.

Bu nəsr örnəkləri içərisində Nişançı Paşaya ünvanlanmış və əsasən, «Şikayətnamə» adı ilə tanınan məktub daha çox məşhurdur.

Əslində bədii növ və janr istiqaməti etibarı ilə həmin nümunə bədii əsərin tələbləri çərçivəsindən fərqli məqsəd üçün qələmə alınmışdır. Belə demək mümkünsə, o, şikayət məktubudur. **Epistolyar janrda, işgüzar üslubdadır**. Bununla belə müəllifin bədii zəkası bu şikayət məktubuna da öz sığalını çəkmiş, onu söz sənətinin əlvan rəngləri ilə bəzəmiş, təravətli libas geyindirmiş, bədii əsər səviyyəsinə yüksəltmiş və bədii nəsr tariximizin yaddaşına həkk etmişdir.



Janrın tələbinə müvafiq olaraq həcmcə kiçik ölçüyə malik bu məktub kəskin ruhu, satirik məzmunu, ifşaedici ideya kəsəri etibarı ilə diqqəti cəlb edir. Əslində «Şikayətnamə» dövlət səviyyəsində baş verən özbaşınalığa və cinayətkarlığa qarşı yönələn kəskin ittiham və ifşa aktıdır. Burada biz üç tərəf görürük: şair, sultan və aşağıdan yuxarıya qədər onun (sultanın, başqa sözlə dövlətin) məmurları. Şair öz başına gələn əhvalat, sosial fakt əsasında sultanı və onun məmurlarını istehza və tənqid hədəfinə çevrir. Mikromühitdəki eybəcərliyi makromühitdəki eybəcərliyin detalı, sübutu kimi tipikləşdirir. Kiçik bir məktubda dərin ümumiləşdirmə missiyasını yerinə yetirir və hətta tamah toruna düşdüyü üçün özünü də məzəmmət edir.

«Şikayətnamə» **avtobioqrafik** əsərdir və sənətkarın şəxsi həyatının müəyyən epizodu ilə bağlıdır. Müəllif əsərdə kiçik müqəddimədən sonra ərz edir ki, o, üzlət məqamında qərar tutub qənaət guşəsində sakit ömür sürərkən birdən başına qəribə sövda düşür. Tamah əhlinin təmənna və bədnamlıq yolunu tutur. Azı atıb ad-san, böyüklük, ucalıq həvəsinə düşür. Padşah lütfündən maddi fayda əldə etmək zövqünə uyur:

*Ki, müqimi-məqami-üzlət ikən,*

*Sakini-guşeyi-qənaət ikən,*

*Başıma düşdü cah sevdası*

*Zövqi-əhli-təmə təmənnası.*

*Həvəsi-kəsbi-nəngü nam etdim,*

*Tələbi-rifəti-məqam etdim.*

Təntənəli üslubla deyilən bu və bundan sonrakı misralarda əslində kəskin rişxənd vardır. Çünki *«məzhəri-lütfi-padişah»* olmaq həvəsinə düşən şairi aqibətdə nə gözləyir? Onu bu sövdaya salan padşahın iltifatı, yəni ona verdiyi barat, ixtiyarnamədir. Ancaq nəticədə həmin ixtiyarnamə adi kağız parçasından fərqlənmir. Hökmsüz və sənətkara xeyir əvəzinə əziyyət gətirən, onu pis adamların təhqir obyektinə çevirən bir əşyaya çevrilir. Ona görə də şair yazır:

*Bilmədim kim, şikəstəhal oluram,*

*Həsəd əhlinə payimal oluram.*

*Təmə' əşrara xadim olmaq imiş,*

*Süfəhaya mülazim olmaq imiş.*

Ümumiyyətlə, «Şikayətnamə» tarixi həqiqətlə bağlı qələmə alınmış əsərdir. Belə ki, Osmanlı hökmdarı Sultan Süleyman Qanuni şairə Bağdadın ovqaf idarəsindən ayda doqquz ağça təqaüd təyin edilməsi barədə barat verir. Füzuli həmin təqaüdü almaqdan ötrü ovqaf idarəsinə müraciət etsə də, cəhdi boşa çıxır. Məqsədinə nail ola bilməyən sənətkar bu məktubla Nişançı Paşaya öz şikayətini izhar edir. Məktubun məzmun və ideyası deyilən tarixi həqiqətin təcəssümü ilə əlaqədardır.

Füzuli sultanı və onun baratını da mərtəbəli ibarələrlə tərifləyir. Süleyman Qanunini ədalətin, vilayətpərvərliyin, qayğıkeşliyin hamisi adlandırır. Onun şairə ünvanladığı baratı isə «ərkani-dövlətdən» ona yetişən «səadəti-imdad», «bərati-humayun» hesab edir. Baratın ağ kağızını kafura, qara mürəkkəblə yazılmış yazılarını ənbərə, nöqtələrini parlaq ulduza oxşadır. Onun maarif nuru, irfan bəzəyi ilə süsləndiyini nəzərə çatdırır. Tərif üçün Quran ayələrindən də istifadəyə əl atır. Əslində isə deyilən tərif və tərənnümün içərisində ciddi ironiya, sətiraltı istehza vardır. Çünki şair hələ qarşıdakı hadisədən, ovqaf idarəsindən və ondan yuxarıdakı dövlət təsisatlarından, rütbə sahiblərinin əməllərindən xəbərsizdir. 

Məktubda birinci hissədəki bu cür fərəhli, nikbin ovqatdan sonra ikinci hissədə qeyri-insani bir mənzərə ilə rastlaşırıq. Şair baratı götürüb ovqaf idarəsinə gedir. Əsl mahiyyət və məsələnin iç üzü də bu zaman açılır. Füzuli buradakı adamların bir məmur kimi zahiri sima və davranış tərzinin neqativ çalarını üç cümlə ilə elə sərrast ifadə edir ki, əlavə şərhə ehtiyac qalmır. O, hekayətləri pərişan, səfadan məhrum, sədaqətdən uzaq bir insan yığnağı görür. Cəmiyyətləri hiylə torunu xatırladır. Məclisləri qaramal yığnağına bənzəyir. Hətta qaramaldan da alçaq məxluq təsiri bağışlayırlar: *«Bir cəm' gördüm, hekayətləri pərişan. Nə səfadan onda əsər, nə sidqdən onda nişan var. Cəmiyyətləri dami-hiyəl, hüzzari-məclisləri «ülaikə-kəl-ən'ami bəlhum əzəllü», hərəkati-nahəmvarları məsabeyi-sühani-ruh və kəlimati-pürazarları müşabeyi-əmvaci-tufani Nuh»* .

Onların idarəyə işi düşən vətəndaşa münasibətlərində də təmənna və etinasızlıq vardır: *«Salam verdim – rüşvət deyildir deyü almadılar. Hökm göstərdim – faidəsizdir deyü mültəfit olmadılar»* – sözləri bu münasibətin bariz ifadəsidir.

Ofqaf idarəsinin işçiləri ilə şair arasındakı lakonik mükalimə dövlət məmurlarının əməl və xarakterini aydın şəkildə ortalığa qoyur:

*Dedim: — Bəratımın məzmunu nə üçün surət bulmaz?*

*Dedilər: — Zəvaiddir, hüsuli mümkün olmaz.*

*Dedim: — Böylə övqaf zəvaidsiz olurmu?*

*Dedilər:— Zəruriyyati-asitanədən ziyadə qalırsa, bizdən qalırmı?*

*Dedim: — Vəqf malın ziyadə təsərrüf etmək vəbaldır.*

*Dedilər: — Ağçamız ilə satın almışız, bizə həlaldır.*

*Dedim: — Hesab alsalar, bu sülukunuzun fəsadı bulunur.*

*Dedilər: — Bu hesab qiyamətdə alınır.*

*Dedim: — Dünyada dəxi hesab alınır xəbərin eşitmişiz.*

*Dedilər: — Ondan dəxi bakimiz yox, katibləri razı etmişiz.*

Qısa mükalimədəki cavablar onu göstərir ki, rüşvətxorluğa qurşanan təkcə buradakı işçilər deyil. Aşağıdan yuxarıya dövlət təsisatının müxtəlif pillələrində dayanan məmur güruhunun əksəriyyəti bu cinayətdə əlbir və şərikdirlər. Cinayət və özbaşınalıq o həddə çatmışdır ki, hətta sultanın verdiyi hökmə məhəl qoyulmur. Sultan baratının dəyəri və qüvvəsi isə ondan ibarətdir ki, vətəndaş *«müdam faidəsiz cidal et»sin, «namübarək üzlər görüb, namülayim sözlər eşit»sin*.

Məmurların şairə verdiyi cavablar hamıya verilən standart, əvvəlcədən hazır, şablonlaşmış cavabları xatırladır.

Nəhayət, suallarına cavabdan qeyri bir şey verilmədiyini görən sənətkar mücadiləni tərk edib məyus və pərişan halda geri qayıtmalı olur.

Üçüncü hissədə müəllif yenidən baratın təsvirini verir. Ancaq başqa səpkidə və başqa tərzdə. Göstərir ki, mən baratdan təhqir və əziyyət gördüyüm üçün utanır, ona nifrət edirdim. O isə bəla və əziyyət verdiyi səbəbindən məndən xəcalət çəkirdi:

*Mən ona fitnə, ol mənə afət,*

*Mütənəffir mən ondan, ol məndən.*

*Mən ona qüssə, ol mənə möhnət,*

*Mütənəkkir mən ondan, ol məndən.*

Füzulini narazı salan və onun istehzasına səbəb olan başqa bir məsələ də vardır. Bu da sultanın ona «zəvaiddən» təqaüd ayırmasıdır. O, məktubun sonuna doğru həmin məsələyə toxunur. «Zəvaid» dövlət xəzinəsinin könüllü vergilər əsasında formalaşan ikinci dərəcəli hissəsidir. Bu vəsait ölkə daxilində ikinci dərəcəli işlərə xərclənir. Şair bir istedad sahibi kimi bu qədər ucuz tutulmasını özündən ötrü təhqir sayır. Mətləbini, incikliyini kinayəli təşbehlərlə bəyan edir. Hamıdan və hər şeydən, hətta heyvanlardan da aşağı mərtəbədə tutulduğunu söyləyir. Kəskin sarkazmla göstərir ki, yəqin sultan bununla mənə öz mərtəbəmi başa salmaq, «onun yanında hətta daş və torpaq qədər» dəyərim olmadığını bildirmək istəyir.

«Şikayətnamə» **satirik nəsrimizin** mükəmməl nümunələrindəndir. Burada sənətkar cəmiyyətdə və dövlət təsisatlarındakı qanunsuzluğu, özbaşınalığı, bürokratiyanı, rüşvətxorluğu birbaşa ifşa edir. Əsər real hadisələrdən danışır və realist ədəbi metodun tələbləri, qanunları fazasında qələmə alınmışdır. Müəllif istehsa və rişxənd dolu bədii-işgüzar fəndlə oxucuya yaşadığı ölkədə yuxarıda sadaladığımız neqativ halların baş alıb getdiyini çatdırmaq istəyir. Gör qanunsuzluq və özbaşınalıq hansı həddə çatıb ki, ölkə başçısının hökmü işləmir, kəsərdən düşüb. Bu isə nəticədə dövlətin xəstələnməsinə və çürüməsinə gətirib çıxaran əlamətlərdir.

«Şikayətnamə» bədii cəhətdən də Füzuliyanə bir üslub və ədə ilə yazılmışdır. Qafiyəli nəsr – səc’ şəklindədir. Müəllif məktuba söylədiyi mətləblərin təsir gücünü artıran bir neçə şeir parçası da əlavə etmişdir.

**Ədəbiyyat**

1. **Araslı H.** Böyük Azərbaycan şairi Füzuli. Bakı, 1958

2. **Araslı H.** Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı, 1998

3. **Babayev Y**. Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər). Bakı, 2018

4. **Əliyev S.** Füzulinin poetikası. Bakı, 1986

5. **Füzuli M**. Əsərləri, 5 cilddə (tərtib edəni: Araslı H.), V c., Bakı, Elm, 1985

6. **Füzuli M.** Əsərləri, 6 cilddə (tərtib edəni: Araslı H.), II cild, Bakı, 1958

7. **Füzuli M.** Seçilmiş əsərləri. 2 cilddə. I c. (lirik əsərləri-şərhlərlə. Tərtib edəni: Yusifli X.) Bakı, 2005; II c. (epik əsərləri-şərhlərlə. Tərtib edəni: Xəliloğlu S.), Bakı, 2005

8. **Füzuli M.** Hədiqətüs-süəda (tərtibçilər: Səfərli Əlyar, Nağısoylu Möhsün, Göyüşov Nəsib), Bakı, 1993

9. **Füzuli M.** Bəng və Badə (tərtib edib nəsrə çevirəni, müqəddimə və şərhlərin müəllifi: Əliyev S.). Bakı, 1993

10. **Hikmət İ.** Azərbaycan ədəbiyyatı tarixi. 2 cilddə, II c., Bakı, 1928

11. **Köçərli F.** Azərbaycan ədəbiyyatı. 2 cilddə.I c., Bakı, 1978

# FORMS OF ORGANIZATION OF CLASSES ON SPEECH DEVELOPMENT OF SCHOOLCHILDREN

# MƏKTƏBYAŞLI UŞAQLARIN NİTQİNİN İNKİŞAF ETDİRİLMƏSİ ÜZRƏ KEÇİRİLƏN DƏRSLƏRİN TƏŞKİLİ FORMALARI

**PERİ PAŞHAYEVA**

**Azerbaycan Devlet Pedagoji Üniversitesi**

**(Ü. Hacıbeyov-68)**

**ÖZET**

Konuşma gelişimi öncelikle Azerice dili derslerinde gerçekleşir. Geleneksel olarak haftada bir saat tutarlı konuşmayla ilgili özel derslere ayrılır. Burada: makaleler, sunumlar, sözlü hikayeler vb. aittir.

Ancak okul çağındaki çocukların kelime dağarcığını zenginleştirme, cümle kurma, metinleri tanıma, fikirlerini ifade etme çabaları ister dil ister diğer konularda olsun tüm derslerde gözlemlenebilir. Ana işlev özel konuşma dersleriyle gerçekleştirilir: konuşmalar, makaleler, sunumlar, retorik dersleri vb. Dolayısıyla dersleri konuşma gelişimi açısından sınıflandırarak dört türe ayırabiliriz.

Her durumda retorik programlarındaki dersler ana dili ders sisteminden ayrılmamalıdır çünkü bu dilde sistem, dil yapısı, konuşma, edebiyat ayrılmaz bir bütünlük oluşturur. Bir insanın aklını, aklını, manevi dünyasını ve belagatini zenginleştirmenin tek yolu "kelimeyi tapınağa koymaktır".

Dilin tüm tezahürleriyle incelenmesi, konuşma, iletişim, düşünce, biliş, nesiller arası iletişim ve kişisel farkındalık için ona hakim olmayı amaçlamaktadır. Çünkü dil kişiliğin oluşması ve gelişmesinin okuludur.

Konuşma, öğrenciyi sürekli olarak insanlar arasındaki ilişkiler sistemi, biliş ve yaşam çeşitliliği ile tanıştıran bir sosyal yaşam okuludur. Tanınmış dilbilimciler: M.V.Lomonosov, F.I. Sherba, A.M.Peshkovski'yi gördü ve vurguladı. Temelde dilin kendisi, sistemi, fonetiği, kelime bilgisi, dilbilgisi okul çocukları tarafından konuşma ve metin yoluyla öğrenilir.

Dilin zenginliğine hakim olmak için en uygun olanı konuşma etkinliği türleridir. Bütün bunlar elbette edebi dil normlarına ve konuşma kültürünün tüm gerekliliklerine maksimum uyum sağlanarak gerçekleştiriliyor.

**Anahtar kelimeler:** konuşma, öğrenme süreci, anlatım gücü, konuşma hataları, cümle.

**ABSTRACT**

Speech development primarily occurs in Azerbaijani language classes. Traditionally, one hour per week is devoted to special lessons on coherent speech. Here belong: articles, presentations, oral stories, etc.

However, the efforts of school-age children to enrich their vocabulary, to construct sentences, to recognize texts, to express their ideas can be observed in all classes, whether in language or other subjects. The main function is carried out by special speech classes: speeches, articles, presentations, rhetoric lessons, etc. Therefore, we can classify lessons in terms of speech development and divide them into four types.

In any case, courses in rhetoric programs should not be separated from the native language course system, because in this language, the system, language structure, speech, literature form an inseparable whole. The only way to enrich a person's mind, intellect, spiritual world and eloquence is to "put the word in the temple".

The study of language in all its manifestations aims to master it for speech, communication, thought, cognition, intergenerational communication and personal awareness. Because language is the school of formation and development of personality.

Speech is a school of social life, constantly introducing the student to the system of relations between people, to the diversity of cognition and life. Well-known linguists saw and emphasized: M.V.Lomonosov, F.I. Sherba, A.M.Peshkovsky. Basically, the language itself, its system, phonetics, vocabulary, grammar are learned by schoolchildren through speech and text.

The most suitable for mastering the richness of the language are types of speech activity. All this, of course, is carried out with maximum compliance with the norms of the literary language and all the requirements of speech culture.

**Keywords:** speech, learning process, expressiveness, speech errors, sentence.

Nitqin inkişafı, ilk növbədə, Azərbaycan dili dərslərində baş verir. Ənənəvi olaraq, ardıcıl nitq üzrə xüsusi dərslərə həftədə bir saat ayrılır. Bura: esselər, təqdimatlar, şifahi hekayələr və s. aiddir.

Amma lüğəti zənginləşdirmək, daim cümlələr qurmaq, mətnlərlə tanışlıq, məktəblilərin öz fikirlərini ifadə etmək səyləri istər dil, istərsə də digər fənlər üzrə bütün dərslərdə müşahidə olunur. Əsas funksiyanı xüsusi nitq dərsləri yerinə yetirir: söhbətlər, esselər, təqdimatlar, ritorika dərsləri və s. Buna görə də dərsləri nitqin inkişafı baxımından təsnif edərək, dörd növünü ayırd edə bilərik.



Birinci növə Azərbaycan dili üzrə istənilən dərs daxildir (oxu və ədəbiyyat, qrammatika və orfoqrafiya, yazı və s.), orada xüsusi nitq tapşırığı yoxdur. Lakin dərs zamanı ekspressivliyi inkişaf etdirən söhbət və lüğət işi aparılır, intonasiya və oxuduqlarını təkrar danışmaq, cümlələrin tərtib edilməsi, onların yenidən qurulması, nitq səhvlərinin düzəldilməsi, nitq mədəniyyəti ilə bağlı digər işlər birinci növə daxildir;

İkinci növ, qrammatikanın, ədəbiyyatın, orfoqrafiyanın əsas planlaşdırılmış məqsədinə əlavə olaraq nitqlə əlaqəli bir fraqmentin təqdim olunduğu dərsdir. Bu dərs təxminən 10-20 dəqiqə arasında vaxt tələb edir. Yeni bir təkrarlama növü ilə tanışlıq, mətnin qurulması, leksik-semantik materialla tanışlıq (sinonimlər, antonimlər), yeni dərslik ilə, frazeoloji lüğət, məntiqi vurğu, qrammatik tapşırıqlarla bağlı mikro esselər yazmaq və s. daxildir. Müasir dərslərin strukturunda çox yayılmış bu fraqmentlər məktəblilərin nitq inkişafı sistemində öz mühüm yerini tutur.

Üçüncü növ, bütünlüklə kompozisiyaya, təqdimata, şifahi hekayələrə, səhnəciklərin təşkilinə, məruzələrə və s. həsr olunmuş dərslərdir. Dərslər nitq səhvlərinin təhlili, mətnin redaktəsi, kompozisiya üzərində işləmə, ən yaxşı oxucu üçün müsabiqələr, sinifdən kənar dərslər kimi ekskursiyalar, kitabxanada dərslər zamanı istifadə olunur.

